**Azərbaycanın hərbi gücü dünyaya səs salır**



Bax 3

**Azərbaycan dünyanı təəccübləndirə biləcək layihələri gerçəkləşdirir**



Bax 5

**Ukrayna portalında Prezident İlham Əliyevin Paşinyanla müzakirələri barədə məqalə dərc edilib**




Bax4




“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 034 (5999) 20 fevral 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.





Bax 2

# Prezident İlham Əliyev İtaliyada dövlət səfərindədir

Bax 7

## Amerikalı ekspert: “Ermənistan hökumətinin üzvlərinə qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq edilməlidir”



Nikol Paşinyan üçün ən yaxşı resept Ermənistan qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaqdır. Bunu amerikalı ekspert Piter Teys Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrini şərh edərkən deyib. O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev parlaq çıxış etdi: “Bu çıxışda ermənilərin tarixi manipulyasiyaları və son otuz il ərzində Azərbaycana qarşı dezinformasiya kampaniyası ifşa olunub...”

Bax 4



## Prezident Administrasiyasına daxil olan müraciətlər hərtərəfli öyrənilir

Prezident Administrasiyasına daxil olan müraciətlər hərtərəfli öyrənilir və bu, onların yaranma səbəblərini aşkarlamağa, lazım gəldikdə, müraciətlərdə qaldırılan məsələlərin həlli ilə bağlı operativ tədbirlər görməyə və yaxud mərkəzi və yerli icra hakimiyyəti orqanlarında ...

## Elçin Quliyev: Sərhədçilər Prezident İlham Əliyevin tapşırıqlarını yüksək səviyyədə icra edirlər

Bax 4



Xəzər dənizində Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti-döyüş fəaliyyətinə başlanılmasının 27-ci ildönümü münasibətilə fevralın 18-də tədbir keçirilib. Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Xidmətin rəisi general-polkovnik Elçin Quliyev iştirak edib.

## Azərbaycanda və xaricdə ən gəlirli sahələr!



Bax 8

Tələbələr ali təhsil müəssisələrinə qəbul olmadan öncə geniş bir araşdırma aparır və gələcəkdə ona ən çox gəlir gətirəcək sahəni seçməyə çalışır. SİA xəbər verir ki, bu barədə araşdırma aparılıb. Belə ki, həmin araşdırmaya görə, xaricdə və Azərbaycanda böyük iş imkanları və qazancı olan sahələr aşağıdakılardır:

## Koronavirus İranı da “vurdu”




İranın Qum şəhərində iki nəfər koronavirusa yoluxan şəxs aşkar edilib. AZƏRTAC xəbər verir ki, bu barədə İran Səhiyyə Nazirliyinin mətbuat katibi Keyanuş Cahanpur məlumat verib. O qeyd edib ki, Səhiyyə Nazirliyi Qum şəhərinə xüsusi həkim briqadası...

Bax 16

## Vüsal Qasımlı: Son bir ildə Azərbaycanda elektron ticarət rekord həddə çatıb

Bax 7



“Qlobal ödənişlər üzrə gəlirlərin artımı 2017-ci ildə 11 faiz, 2018-ci ildə 6 faiz olmaqla dünyadakı iqtisadi artım tempini əhəmiyyətli şəkildə üstələyir. “Worldpay” hesabatına əsasən, 2022-ci ilə qədər dünyada...

**Tarixə söykənən düşmənçilik...**



Bax 14

**Xəstəxanalarda ödənişlər kart vasitəsilə aparılacaq**




Bax 14

**Messiyə daha bir müştəri çıxdı - Danışıqlar başladı**




Bax 16

# Prezident İlham Əliyev İtaliyada dövlət səfərindədir





*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İtaliya Respublikasına dövlət səfərinə gəlib.*

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Romanın "Fiumicino" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Xarici İşlər Nazirliyinin Dövlət Protokol İdarəsinin rəisi İniqo Lambertini, bu ölkənin Azərbaycandakı səfiri Auqusto Massari və digər rəsmi şəxslər qarşılayıblar.

## Prezident İlham Əliyev Romada dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Qeyd edək ki, bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli Sərəncamına əsasən ucaldılıb. Həmin Sərəncama əsasən Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olub.






# Azərbaycanın hərbi gücü dünyaya səs salır

## *Prezident İlham Əliyev: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var!"*

***Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Azərbaycanda milli ordu quruculuğu çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçib. Lakin bu gün artıq müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusu var. Məhz buna görədir ki, fevralın 5-də Azərbaycan ordusu Cənubi Qafqazda hərbi gücünə görə lider ölkə olub. Reytingdə 138 ölkə yer alıb. Siyahının hazırlanmasında 50 fərqli amil nəzərə alınıb. Azərbaycan siyahıda 63-cü yeri tutub. Reyting cədvəlində Gürcüstan 93-cü, Ermənistan 112-ci yerdə qərarlaşıb.***








### Ordu quruculuğu - son 16 illik uğurlu nəticələr

Məhz Prezident İlham Əliyevin son 16 illik uğurlu siyasətinin nəticəsidir ki, Azərbaycanın dövlət büdcəsində müdafiə xərcləri üçün nəzərdə tutulan vəsait, Ermənistanın ümumi dövlət büdcəsindən çoxdur. Bununla yanaşı, Müdafiə Sənayesi Nazirliyində 400 addan çox müdafiə təyinatlı məmulatın istehsal olunması ölkəmizin hərbi qüdrətinin artmasının bariz nümunələrindəndir.

Bu gün Azərbaycan Ordusunun malik olduğu silah və texnikanın 80 faizindən çoxu yenilənib, ordumuz ən müasir silahlarla təchiz olunub. Hazırda güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir və şəxsi heyətin döyüş ruhu yüksəkdir. Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Bu gün orduda xidmət etməyə yaşı çatan hər bir Azərbaycan vətəndaşı, könüllü olaraq, torpaqlarımızın müdafiəsi uğrunda döyüşmək əzmində olduğunu nümayiş etdirir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub.

### Azərbaycan Ordusu - dünyanın 50 ən güclü ordusu sırasında

Son 16 ildə ölkəmizdə aparılan ardıcıl islahatlar və düşünülmüş daxili və xarici siyasət nəticəsində, Azərbaycan Cənubi Qafqaz regionunun ən nüfuzlu dövlətinə çevrilib. Müstəqilliyimizin, dövlətçiliyimizin qarantı olan və yeni inkişaf mərhələsinə qədəm qoyan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu və xalqımızın güvənc yeridir. Hərbi qüdrətini, ardıcıl olaraq, artıran Azərbaycan Ordusu hazırda dünyanın 50 ən güclü ordusu sırasındadır: "Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sıralarındadır. Aprel, Naxçıvan qələbələri bir daha ordumuzun və xalqımızın vətənpərvərlik ruhunu gücləndirir". Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezidnent İlham Əliyev ordumuzun döyüş qabiliyyətinin hər ötən gün artdığını deyir. Xalq tam arxayın ola bilər ki, ordumuz istənilən vəzifəni yerinə yetirməyə qadirdir: "Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sıralarındadır. Güclü ordunun yaradılması üçün güclü iqtisadiyyatımız olmalıdır. Son 15 ildə Azərbaycan qədər iqtisadi sahədə inkişaf edən ölkə olmayıb. İqtisadiyyatımız 3,2 dəfə artıb. Azərbaycan bu gün iqtisadi baxımdan, özünü rahat hiss edir. Biz öz hesabımıza yaşayırıq və heç bir yerdən yardım almırıq. Öz zəhmətimizlə qazanılan vəsaiti ölkə qarşısında duran məqsədlərə yönəldirik. Bunların arasında ordu quruculuğu əsas yerdədir. 2003-cü ildən bu günə qədər hərbi xərclərimiz 15 dəfə artıb".

Hərbi qüdrətini, ardıcıl olaraq, artıran Azərbaycan Ordusu ən müasir silahlarla, hərbi texnika və digər müdafiə təyinatlı qurğularla tam təchiz edilib. Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu son dövrlərdə qazanılan hərbi uğurlar da aydın surətdə göstərir.

### Düşmənə həmişə yerini göstərən Azərbaycan Ordusu

2016-cı ilin tarixli aprel döyüşü. Bu tarixdə həmişə olduğu kimi, yenə də Azərbaycan Ordusu düşmənə öz yerini göstərdi. Belə ki, Ermənistan Silahlı Qüvvələrinin növbəti təxribatına Azərbaycan Ordusu əks-hücumla cavab verməyə məcbur oldu. Prezident İlham Əliyev Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paraddakı çıxışında da bildirdi ki, Azərbaycan Ordusu döyüş meydanında öz gücünü və məharətini göstərib. "Bu gün "Azadlıq" meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində, işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır" deyə dövlətimizin başçısı vurğulayıb.

Bütün bunlar göstərdi ki, belə xəbərləri yenə eşidəcəyik. Müharibə hələ bitməyib. Nə qədər ki, əzəli-əbədi torpaqlarımız düşmən işğalı altındadır, Azərbaycan əsgəri silahını yerə qoymayacaq!

Bəli, bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, onun Cənab İlham Əliyev kimi Lider Prezidenti, Ali Baş Komandanı var. Həmçinin, əlində silah gecə-gündüz Vətənə keşik çəkən igid əsgər və zabitləri vardır və işğalçı Ermənistan qeyri-konstruktiv mövqeyindən əl çəkərək, Azərbaycan torpaqlarını qeydşərtsiz azad etməlidir, əks-təqdirdə, təcavüzkar Ermənistan qarşısında qüdrətli Azərbaycan Ordusunun gücünü bir daha görəcək!

***RƏFİQƏ KAMALQIZI***

# Elçin Quliyev: Sərhədçilər Prezident İlham Əliyevin tapşırıqlarını yüksək səviyyədə icra edirlər



***Xəzər dənizində Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti-döyüş fəaliyyətinə başlanılmasının 27-ci ildönümü münasibətilə fevralın 18-də tədbir keçirilib. Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Xidmətin rəisi general-polkovnik Elçin Quliyev iştirak edib.***





Dövlət himninin səslənməsi ilə başlayan tədbirdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev dənizçi sərhədçiləri təbrik edərək hələ 15 il əvvəl dənizdə dövlət sərhədlərinin mühafizəsinə xüsusi diqqət ayıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il 18 fevral tarixli Sərəncamı ilə DSX-nin Sahil Mühafizəsinin yaradıldığını, 2008-ci il noyabrın 8-də regionumuzda bənzəri olmayan yeni dəniz hərbi bazasının istifadəyə verildiyini, ölkəmizin dəniz sərhədlərinin mühafizəsinin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini bildirib.

Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən canlı debatda beynəlxalq auditoriya qarşısında Ermənistanın baş nazirinə tarix və beynəlxalq siyasət dərsi keçməklə torpaqlarımızın işğal altında qalması ilə bağlı barışmaz mövqeyini, dövlətimizin ərazi bütövlüyünün bərpa edilməsinin fundamental haqqımız olduğunu, milli dövlətçiliyimizin gücünü, qüdrətini və yenilməzliyini növbəti dəfə nümayiş etdirdiyini diqqətə çatdıran DSX rəisi bu tarixi hadisənin Azərbaycan sərhədçisinin qələbə əzmini, qəhrəmanlıq ruhunu yüksəklərə qaldırdığını xüsusilə vurğulayıb.

Xidməti-döyüş fəaliyyətinə başladıqları ilk gündən dəniz sərhədçilərinə xüsusi diqqət ayıran Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"nın icrasının təmin edilməsi üzrə DSX-nin Sahil Mühafizəsinin "Gəmi inşası və təmiri mərkəzi"nin inşa edildiyini, 12 ədəd "Tufan" və "Şahdağ" tipli sərhəd gözətçi gəmisinə baxış məqsədilə Prezident İlham Əliyevin dəfələrlə DSX-nin Sahil Mühafizəsinin bazasında olmasını xüsusilə qeyd edən general-polkovnik Elçin Quliyev bu gəmilərin döyüş sıralarına qatılması sayəsində sərhəd sularında dövləti maraqlarımızın qorunması imkanlarının xeyli genişləndiyini, dəniz sərhədlərinin mühafizəsi məsələlərinə daim ali diqqətin göstərildiyini və yüksək nəticələrin əldə olunduğunu qeyd edib.

2018-ci il avqustun 12-də Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında mühüm əhəmiyyət kəsb edən "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"nın imzalanmasını əlamətdar hadisə kimi qeyd edən Dövlət Sərhəd Xidmətinin rəisi bu sənədin dəniz sərhədlərimizin mühafizəsi üzrə xidməti fəaliyyətin yeni müstəvidə təşkil olunmasına şərait yaratdığını bildirib.

Müstəqil dövlətimizin banisi ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Respublikasının dövlət sərhədlərinin keşiyində böyük qürur hissi ilə dayanan Azərbaycan sərhədçilərinin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qarşıya qoyulmuş tapşırıqları ən yüksək səviyyədə icra etdiyini vurğulayan general-polkovnik Elçin Quliyev gələcəkdə də dənizçilərin göstərilən bu ali etimadı yeni nailiyyətlərlə doğruldacaqlarına əminliyini bildirib.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi general-leytenant Əfqan Nağıyev Sahil Mühafizəsinin fəaliyyət göstərdiyi müddət ərzində dənizçi sərhədçilərin Xəzər dənizində qazandıqları yüksək nailiyyətlər haqqında məruzə edib. Tədbirdə xidməti-döyüş fəaliyyətində yüksək nəticələr əldə etmiş bir qrup hərbi qulluqçu təltif edilib. Sonda iştirakçılar DSX-nin nümunəvi hərbi orkestrinin və incəsənət ustalarının hazırladıqları maraqlı konsert proqramına tamaşa ediblər.

# Ukrayna portalında Prezident İlham Əliyevin Paşinyanla müzakirələri barədə məqalə dərc edilib

Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyevin Ukraynanın "lb.ua" informasiya portalında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrə dair yazısı dərc edilib.


LB.ua НОВОСТИ ПУБЛИКАЦИИ БЛОГИ ФОТО/ВИДЕО
Война на Донбассе Вирус в Китае Авиакатастрофа в Иране
План уничтожения Майдана Очі Майдану
Главная – Блоги – Блог Азера Худиева – 18 февраля 2020, 15:29

Мюнхенские дебаты: сравнение двух политических школ

На ежегодную Мюнхенскую конференцию по безопасности, по традиции, собираются главы государств, министры обороны и иностранных дел, представители бизнеса и международных организаций из многих стран мира. В этом году мюнхенский отель "Баварский двор" с 14 по 16 февраля приютил участников конференции из более 40 стран мира. Обсуждались важнейшие вопросы мировой политической повестки дня. Участники конференции попытались найти ответы на актуальные геополитические, экономические, политические, военные вопросы и проблемы, связанные с формированием новой глобальной системы безопасности. Выступающие в разных контекстах отметили опасность увеличения турбулентности в мировой геополитике, несоблюдения международного права в межгосударственных отношениях, нерешенности региональных конфликтов.

Азер Худиев, Чрезвычайный и Полномочный посол Азербайджана в Украине

Facebook 30 Twitter

AZƏRTAC xəbər verir ki, səfir məqalədə Prezident İlham Əliyevin diplomatik qələbəsindən yazır. "Bu, sadəcə iki siyasətçinin müzakirəsi deyil, iki siyasi məktəbin müzakirəsi idi. Prezident İlham Əliyev müasir dialoq siyasətini təmsil edirdi, Nikol Paşinyan isə aqressiv görünürdü və sivil dialoqa hazır deyildi. Eyni zamanda, bu debat qlobal və regional geosiyasət arasındakı ziddiyyətləri əyani şəkildə göstərdi", - deyə məqalədə vurğulanır.

Səfir vurğulayıb ki, təcavüzkar ölkənin hökumətinin başçısı, manipulyasiya və hətta məlum tarixi həqiqətləri təhrif etməklə əsl mahiyyətdən yayınmağa çalışırdı. Azərbaycan Prezidenti isə beynəlxalq hüquq normaları çərçivəsində siyasi etika qaydalarına ciddi riayət edərək, fikirlərini təmkinlə söylədi və açıq şəkildə mübahisə etdi. Təsadüfi deyil ki, Ermənistandakı bir çox ekspert və siyasətçi də İlham Əliyevi bu müzakirələrin qalibi hesab edir. Müzakirələr zamanı Azərbaycan Prezidenti yüksək səviyyəli təhsili, müasir siyasi lider mədəniyyəti və ingilis dilini əla bilməsi ilə özünü rəqibindən fərqləndirdi. XXI əsrin lider xüsusiyyətini, dialoqa açıq, siyasi mədəniyyət və təmkinli, istənilən vəziyyətdə siyasətə dərindən bələd olduğunu nümayiş etdirdi.

# Prezident Administrasiyasına daxil olan müraciətlər hərtərəfli öyrənilir

***Prezident Administrasiyasına daxil olan müraciətlər hərtərəfli öyrənilir və bu, onların yaranma səbəblərini aşkarlamağa, lazım gəldikdə, müraciətlərdə qaldırılan məsələlərin həlli ilə bağlı operativ tədbirlər görməyə və yaxud mərkəzi və yerli icra hakimiyyəti orqanlarında vətəndaş müraciətlərinə baxılması, həmçinin qəbulların təşkili ilə bağlı müvafiq tövsiyələrin verilməsinə imkan yaradır.***



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov "Azərbaycan Prezidentinin dərin islahatları vətəndaş müraciətlərində qaldırılan məsələlərin həllinə böyük inam yaradır" adlı məqaləsində bildirib.

Məqalədə qeyd edilir ki, 2019-cu ildə Prezident Administrasiyasına daxil olmuş müraciətlərin 67,9 faizi ərizə, 31,8 faizi şikayət, 0,3 faizi isə təklifdir. Vurğulanır ki, Prezident Administrasiyasına daxil olan ərizələrin mövzuları çox müxtəlifdir. Vətəndaşlar əfv məsələləri, iş, mənzil, ünvanlı sosial yardımla təmin olunma, güzəştli kreditlərin verilməsi, pensiyaların yenidən hesablanması, xaricdə müalicə, yaşayış binalarının və mənzillərin təmiri və sənədləşdirilməsi, sahibkarlığın inkişafı, məcburi köçkünlərin evlə təmin edilməsi, təhsil haqqı və digər məsələlərlə bağlı daha çox müraciət ediblər.



# Azərbaycan dünyanı təəccübləndirə biləcək layihələri gerçəkləşdirir

***Hər bir xalqı dünyaya tanıdan amillərdən biri həmin xalqın mədəniyyətidir. Ölkə daxilində və xarici məkanda keçirilən tədbirlərdə Azərbaycanın mədəniyyətinin və incəsənətinin nadir nümunələri təqdim olunur, bu sənəti yaşadan sənətkarların yaradıcılıq irsi təbliğ edilir.***

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə hər zaman diqqətdə olub. Azərbaycan xalqının bədii təfəkkür və yaradıcılığına ölkənin qeyri-adi təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də kifayət qədər təsirinin göstərib. Ölkəmizin müxtəlif sənət növlərinin hər biri ayrı-ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçməsinə baxmayaraq, birlikdə vəhdət təşkil edərək, Azərbaycan incəsənəti və mədəniyyəti haqqında tam təsəvvür yaratmağa geniş imkan verir.

Müasir dövrümüzdə zəngin və çalarlı Azərbaycan mədəniyyəti dünya ölkələrində yüksək səviyyədə təbliğ olunur, eyni zamanda dünya sənətsevərləri tərəfindən maraqla qarşılanır. Dünyanın ən zəngin muzeylərində Azərbaycan xalq sənətkarlığının bir çox gözəl nümunələri ilə də rastlaşmaq mümkündür. Azərbaycan mədəniyyətinin çoxəsrlik tarixə malik nümunələrinin YUNESKO-nun bəşəriyyətin nadir əsərləri sırasında yer alması da təsadüfü deyildi.

Azərbaycanın çoxəsrlik mədəniyyəti, incəsənəti xəzinəsini öz nadir inciləri ilə zənginləşdirən müasir dövrümüzdə dünyanın istənilən ölkəsində birmənalı qarşılanır: sənətin mükəmməl nümunəsi tək. Ölkəmizin bir-birindən maraqlı beynəlxalq mədəniyyət tədbirlərinə ev sahibliyi etməsi Azərbaycan musiqisinin tanınmasında, təbliğində xüsusi yeri vardır. Dövlətimizin mədəniyyətə, incəsənətə göstərdiyi diqqət və qayğının göstəricisi olan görülən işlər Prezident İlham Əliyevin böyük səyi və təşəbbüsü ilə həyata keçirilir. Azərbaycan mədəniyyətinin təbliği, tədqiqi və inkişafı sahəsində böyük layihələrə imza atan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da əvəzsiz xidmətləri danılmazdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə dünya ölkələrində keçirilən tədbirlər ölkəmizin bugünkü inkişafını, tarixini və mədəniyyətini əks etdirir. Bu tədbirlərlə hər bir kəs aydın görür ki, qədim Azərbaycan, onun paytaxtı Bakı və ölkəmizin bütün regionları sürətlə inkişaf edir, gözəlləşir, müasirləşir.

Ənənəvi olaraq, hər il Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı Azərbaycanın dilbər guşələrindən biri olan Qəbələdə əsl musiqi bayramı yaşadır. Bu beynəlxalq festival dostluq və mədəniyyət bayramına çevrilib. Festival çərçivəsində gənc pianoçuların beynəlxalq müsabiqəsi, ustad dərsləri, kamera musiqisi və orkestr konsertləri, klassik musiqi axşamları, muğam konserti keçirilir. Bu müddətdə Azərbaycan dinləyiciləri və tamaşaçıları, Qəbələ əhalisi xoş dəqiqələri yaşayırlar. 20-dən artıq ölkəni təmsil edən dünya şöhrətli musiqiçilər festivalı möcüzəli layihə adlandırıblar. Festival ölkələr arasında dostluq və əməkdaşlığın inkişafına yeni təkandır. Bakıda keçirilən Beynəlxalq Mstislav Rostropoviç Festivalı ölkə həyatında əhəmiyyətli hadisəyə çevrilib. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən festivalın əsas məqsədi M.Rostropoviçin vətənində dünyanın tanınmış incəsənət ustalarının çıxışlarını təşkil etməkdir ki, buna da nail olunub. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu beynəlxalq festival hər il ölkəmizin paytaxtında əsl musiqi bayramı kimi təşkil edilir. Festivalda dünyanın məşhur musiqiçiləri öz ifalarını nümayiş etdirirlər. Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı ölkəmizdə musiqi sənətinin daha bir təntənəli zamanını yaşadıb. Festivalda Azərbaycan ilə yanaşı, Rusiya, Böyük Britaniya, ABŞ, Avstriya, Koreya Respublikası, Macarıstan, Almaniya və digər ölkələrdən görkəmli ifaçılar, musiqi kollektivləri iştirak edirlər. Üzeyir Hacıbəyli Tanrının Azərbaycan xalqına bəxş etdiyi misilsiz bir töhfədir. Onun yaradıcı irsi təkcə öz xalqı üçün deyil, bütün bəşəriyyət üçün çox dəyərli mənəvi sərvətdir. Zaman keçdikcə Üzeyir sənəti dünya xalqları tərəfindən daha çox sevilir, onun əsərləri heç bir sərhəd tanımır. Dünyanın ən möhtəşəm teatrlarının səhnəsində onun əsərləri dönə-dönə tamaşaya qoyulur, ekranlaşdırılır, məşhur müğənnilər tərəfindən sevə-sevə ifa olunur. Üzeyir bəyin əsərləri milli olduğu qədər də bəşəridir. Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə Üzeyir Hacıbəyli irsinin öyrənilməsinə, tədqiqinə, əsərlərinin səhnəyə qoyulmasına və ekranlaşdırılmasına xüsusi diqqət göstərilmişdir. Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını da Ulu Öndər Heydər Əliyev qoymuşdur. İncəsənətin müxtəlif sahələrinə diqqəti artırmaq, əhalinin, o cümlədən gənc nəslin sənətə olan marağını daha da inkişaf etdirmək, bölgələrlə mədəni əlaqələri möhkəmləndirmək məqsədilə təşkil olunan tədbirlər maraqla qarşılanır.

Azərbaycanın zəngin musiqi nümunələrinin Avropada təbliğinin genişləndirilməsi məqsədilə "Muğam - Azərbaycanın müqəddəs musiqisi" diski işıq üzü görüb. Diskə geniş səs diapazonuna malik tanınmış xanəndələrin ifaları daxil olunmuşdur. İfalar lentə alınarkən bütün müasir muğam ansambllarının özəyini təşkil edən kamança, tar, qaval, balaban və nağara kimi milli musiqi alətlərimizdən istifadə olunmuşdur. 8-ci Moskva Beynəlxalq Müasir İncəsənət Bienallesində 11 ölkədən 34 rəssamla yanaşı Azərbaycan təmsil edən rəssamın da əsərləri yer almışdı. Orxan Məmmədovun təqdim etdiyi installyasiyada müxtəlif dövrlərə aid 50-dən çox Azərbaycan xalçasının naxışları toplanıb. Rəssamın süni intellektdən istifadə edərək hazırladığı art-obyektdə naxışlar bir-birini əvəzləyirdi.

Vurğulamaq yerinə düşər ki, Parisdə Azərbaycana həsr olunmuş sərgi və incəsənət ustalarının konserti Azərbaycanın rəmzlərindən biri olan Qız qalasına həsr edilmişdir. Ekspozisiyada Bakıda keçirilən "Qız qalası" Beynəlxalq incəsənət festivallarında nümayiş etdirilən əsərlər yer almışdır. Bu əsərlərin hamısını bir ideya birləşdirir: dünyanın mədəni irsini qorumaq.

Bütün bunlar Azərbaycanın mədəniyyət tarixinə həkk olunan hadisələrin kiçik bir qismidir. Azərbaycan bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsində də dünyanı təəccübləndirə biləcək layihələri gerçəkləşdirir.

***ZÜMRÜD***

## Ötən il 5,5 minə yaxın əcnəbiyə Azərbaycanda işləmək üçün icazə verilib



Ötən il ölkə ərazisində əcnəbilərə və vətəndaşlığı olmayan 5 min 466 nəfərə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq və müddəti uzadılmış iş icazələri verilib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, onlardan 31,8 faizi mədənçıxarma sənayesində, 30,5 faizi tikintidə, 10,7 faizi emal sənayesində, 6,5 faizi təhsil, 3,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 2,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi və 11,4 faizi digər sahələrdə məşğul olmaq üçün iş icazələri alıblar.

## Bu ilin əvvəlində məşğul əhalinin 1,6 milyondan çoxu qeyri neft-qaz sektorunda çalışıb

Bu il fevralın 1-nə olan ilkin məlumata əsasən ölkəmizdə əmək qabiliyyətli 5 milyon 188 min 900 nəfərin 4 milyon 937 min 300 nəfəri məşğul əhalidən ibarətdir. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 1-nə olan ilkin məlumata əsasən muzdla işləyənlərin sayı 1 milyon 645 min 400 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 914 min 500 nəfər, qeyri-dövlət sektorunda isə 730 min 900 nəfər təşkil edib.

İqtisadiyyatın neft-qaz sektorunda 34 min 800 min nəfər, qeyri neft-qaz sektorunda isə 1 milyon 610 min 600 nəfər çalışıb. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,8 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,4 faizi emal sənayesində, 7,3 faizi tikintidə, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,1 faizi mədənçıxarma sənayesində, 1,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrində işləyib.

# Vüsal Qasımlı: Son bir ildə Azərbaycanda elektron ticarət rekord həddə çatıb



*"Qlobal ödənişlər üzrə gəlirlərin artımı 2017-ci ildə 11 faiz, 2018-ci ildə 6 faiz olmaqla dünyadakı iqtisadi artım tempini əhəmiyyətli şəkildə üstələyir. "Worldpay" hesabatına əsasən, 2022-ci ilə qədər dünyada e-commerc-in həcmi 140 online ödəmə sistemindən istifadə etməklə 4,6 trilyon dolları keçəcək. Hazırda dünyada kredit və debet kartları, əvvəlcədən ödəmə kartları, elektron cüzdanlar, onlayn bank ödəmələri, birbaşa debet, sonradan ödəmə, nağd pul, birbaşa daşıyıcı göndərmə və kriptovalyutalardan ödəmə vasitəsi kimi istifadə edilir. Dünyada rəqəmsal ödənişlərin hər 1 faiz artımı istehlak səviyyəsini 104 milyard dollar artıra bilər". Bu fikirləri Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib.*

V.Qasımlı bildirib ki, "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" və "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" ölkəmizdə rəqəmsal ödənişlərin inkişaf etdirilməsi üçün əsas dövlət sənədləridir: "Hazırda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi hər iki sənədin monitorinq və qiymətləndirilməsini həyata keçirir. Dövlət Proqramının icrası nəticəsində nağdsız ödənişlərin illik həcmi təqribən 17 mlrd. manat arta bilər. Bu isə nağdsız ödənişlərin payının hər il 7% artmasına imkan verəcəkdir. Nəticədə bütövlükdə iqtisadi tranzaksiyada nağd ödənişlərin payı 74%-dən 40%-ə qədər azalacaq. Azərbaycanda ötən il Banklararası Milli Hesablaşmalar Sistemi üzrə ödənişlərin məbləği azalsa da, Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi və Sürətli pul köçürmə sistemləri üzrə köçürmələr artmışdır. Ümumilikdə, ölkəmizdə ödəniş və pul köçürmə sistemləri üzrə əməliyyatların sayı 2019-cu ildə 40 faiz artmışdır. 2019-cu ildə ödəniş kartlarının sayı 11,2 faiz artmaqla 7,3 milyon ədədə çatmışdır. Həmçinin, keçən il debet və kredit kartları vasitəsilə aparılan əməliyyatların sayı 38 faiz, məbləği isə 31 faiz artmışdır. 2019-cu ildə ölkədaxili əməliyyatlardan elektron ticarət üzrə nağdsız ödəniş əməliyyatlarının sayı 67 faiz, məbləği isə 97 faiz artmışdır. Azərbaycanda elektron ticarətin həcmi tarixdə ilk dəfə olaraq rekord həddə artmışdır. Təsadüfi deyil ki, Azərbaycan UNESCAP-ın hesablamalırna görə, kağızsız ticarət və ticarətin asanlaşdırılması kriteriyalarına görə Cənubi Avropadan başlamış Çinə qədər geniş bir coğrafiyada lider ölkədir. Azərbaycanda son bir ildə ATM-lər vasitəsilə nağdsız ödənişlər cüzi azalsa da, POS terminallar üzrə nağdsız ödənişlər 20 faizə qədər artmışdır. Lakin ATM və POS terminalların sayı aşağı sürətlə artır, xüsusən regionlarda azalma müşahidə edilir. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdə rəqəmsal vergi inzibatçılığının inkişaf etdirilməsi üçün elektron informasiya sisteminə məlumat ötürməyə imkan verən yeni nəsil nəzarət-kassa aparatlarının tətbiqi nəzərdə tutulub. Pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti üzrə nağd və nağdsız ödənişlər edən vətəndaşlar ödənilən vergi məbləğinin bir hissəsi ilə bağlı vergi güzəştləri əldə etmək imkanına malik olacaq ki, bu da nağdsız ödənişlərin stimullaşdırılması deməkdir. Elektron ixracın lideri Azexport.az portalının ixrac sifarişləri son üç ildə 1.5 milyard dolları keçib. Azərbaycanda ani ödəniş sistemi, smart tələbə kartları, dəmir yollarında gediş haqlarının təmassız bank kartları ilə ödənilməsi, ictimai nəqliyyatda nağdsız əməliyyatlar və başqa istiqamətlərdə rəqəmsal ödənişlərin inkişafı üçün fəaliyyətlər göstərilir".

# Vüqar Rəhimzadə: "Ümumavropa Qarabağ mitinqi Azərbaycan həqiqətlərinin təbliğinə böyük dəstək olacaq"



***Fevralın 22-də Almaniyada Ümumavropa Qarabağ mitinqinin keçirilməsi təşəbbüsü Azərbaycan diaspor təşkilatlarının həqiqətlərimizin təbliği istiqamətində həyata keçirdikləri tədbirlərin, göstərdikləri səylərin tərkib hissəsidir. Reallıqlarımızın, xüsusilə 1988-ci ildə işğalçı Ermənistanın əsassız torpaq iddiası nəticəsində yaranan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması Azərbaycan diplomatiyasının qarşısında dayanan əsas vəzifələrdəndir. Bir mühüm məqamı da nəzərə alsaq ki, yaxın günlərdə XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının 28-ci ildönümünü qeyd edəcəyik, belə tədbirlərin keçirilməsinin əhəmiyyəti daha aydın şəkildə dərk olunar. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.***

Azərbaycanın davamlı diplomatik uğurlarından bəhs edən V.Rəhimzadə qeyd edib ki, bu uğurlarımız dövlətimizin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir. Baş redaktor deyib: "Prezident İlham Əliyev daim çıxışlarında bir çağırışı edir ki, Dağlıq Qarabağ gündəlik işimiz olmalıdır. Münaqişə ilə bağlı bütün həqiqətlər, erməni yalanları faktlar əsasında dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır. Məhz uğurlu xarici siyasətin nəticəsidir ki, dünya dövlətlərinin, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın ədalətli mövqeyi dəstəklənir, Ermənistanın işğalçılıq siyasəti pislənilir. Bu günlərdə 56-cı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində dövlətimizin başçısı İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr də Ermənistanın bu günə qədər apardığı yalan təbliğatlara işıq salmaqla yanaşı, tarixin saxtakarlıq sevmədiyini, faktlara əsaslandığını bir daha işğalçı dövlətin rəhbərliyinə diktə etdi".

V.Rəhimzadə bildirib ki, təbliğatı real həqiqətlərə, tarixi faktlara beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanan Azərbaycan dövləti daim bu istiqamətdə səylərini gücləndirir, diplomatik mübarizədə qələbəni Dağlıq Qarabağ probleminin ədalətli həllində vacib amil kimi diqqətdə saxlayır. Təbliğat işinin yüksək səviyyədə qurulmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın, eyni zamanda, Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın xidmətlərini yüksək qiymətləndiririk. Heydər Əliyev Fondu tərəfindən Dağlıq Qarabağ həqiqətləri ilə bağlı hazırlanan vəsaitlər-kitablar, albomlar, videodisklər dünyanın müxtəlif ölkələrində təbliğat vasitəsi kimi istifadə edilir. Bu vəsaitlər müxtəlif dillərdə tərcümə və təbliğ edilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" kampaniyası da təqdirəlayiq təşəbbüslərdəndir. Bu kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrində silsilə tədbirlər keçirilir, ermənilərin vəhşiliklləri faktlarla beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır. Tədbirlərin əhəmiyyəti əldə olunan nəticələrdən də aydın görünür.

V.Rəhimzadə bildirib ki, Ümumdünya Qarabağ mitinqi də bu kimi tədbirlərin davamı olaraq Azərbaycan həqiqətlərinin, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasına böyük dəstək olacaq. Təbii ki, hər bir tədbir mahiyyəti baxımından xüsusi diqqət çəkir. Bu gün harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlıları bir amal - azərbaycançılıq ideyası ətrafında sıx birləşərək 30 ildən çox davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə, dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətə, ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində atılan addımlara öz töhfəsini verməlidir.

# Münxendə keçirilən müzakirələr Misir mətbuatında da geniş işıqlandırılıb


UNA

مؤتمر ميونخ للأمن.. جلسة نقاش حول النزاع بين أذربيجان وأرمينيا بشأن قراباغ الجبلية

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr Misir mətbuatında da geniş şəkildə işıqlandırılıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın Misirdəki səfirliyindən məlumat verilib. Dərc olunan məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin dəmir məntiqi, tarixi faktlara əsaslanan çıxışına yer ayrılıb, ölkəmizin haqlı mövqeyi nümayiş etdirilib.

# Pakistanlı jurnalist Naxçıvandan yazıb

Pakistanın "dailytimes.com.pk" internet saytında "Azərbaycanı tanıyaq" sərlövhəli məqalə yerləşdirilib. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, məqalənin müəllifi, "Hum news" kanalının təqdimatçı-prodüseri və müxbiri Şiffa Zakriya Naxçıvanın dini turizm məkanlarından olan "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi və Nuh Peyğəmbərin məzarüstü türbəsi ilə bağlı məlumatlar verib.

Məqalədə qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın bir hissəsidir və paytaxtı Naxçıvan şəhəridir. Bakıdan Naxçıvana quru yollar yoxdur. Əshabi-Kəhf Naxçıvan şəhərinin şərq hissəsindəki təbii mağarada yerləşir. Qədim dövrlərdən bəri Əshabi-Kəhf yeddi adamın əsrlərboyu yatdığı müqəddəs yer hesab olunur. Müəllif vurğulayıb ki, muxtar respublika, eyni zamanda, turistlərin Nuh Peyğəmbərə görə ziyarət etdiyi müqəddəs məkandır. Nuhun məqbərəsi 2006-cı ildə bərpa edilib. Türbənin altında daş sütun yerləşir. Nuhun məzarının bu sütunun altında olduğu ehtimal edilir. Rəssam Bəhruz Kəngərlinin 100 il əvvəl çəkdiyi və hazırda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan rəsm əsəri də türbənin tarixi haqqında məlumat verir.


Daily Times

PERSPECTIVES

Knowing Azerbaijan

Shiffa Yousafzai

FEBRUARY 16, 2020

Nestled in between Asia and Europe, Azerbaijan is bordered by Russia, Georgia, Armenia, Turkey and Iran. On the East lies the Caspian Sea. Swans, flamingos and pelicans all migrate to this region. Much of the north and west are covered by the Caucasus Mountains, where roe deers, brown bears and lynx thrive. One must be astounded to find out that Azerbaijan holds a very integral monopoly over trade and energy between Asia and Europe. In parts of Azerbaijan, including just outside the capital city of Baku, the land is dotted with such oil and petrol reserves. These are areas where oil and petrol can be extracted from the earth and used as fuel. Thus, as a result, volcanoes have formed above some of the reserves. But instead of spewing lava, the volcanoes erupt with a muddy mix of water, sand, petrol and sometimes oil. This forms the major energy resource of Azerbaijan. That muddy mixture is also used in medicines and cosmetics.

# “Münhen sammiti xarici sərmayənin cəlb edilməsi baxımından vacibdir”

*“Münhen konfransı Azərbaycan üçün eyni zamanda iqtisadi baxımdan əhəmiyyətlidir”. Bunu SİA-ya açıqlamasında iqtisadi ekspert Vüqar Bayramov deyib.*



O bildirib ki, əvvəla Azərbaycan Prezidenti enerji təhlükəsizliyi ilə əlaqədar dəyirmi masada keçirilən müzakirələrdə iştirak edib: “Azərbaycanın regional layihələrdəki rolu, eyni zamanda Avropa ölkələri daxil olmaqla bir sıra region ölkələrinin enerji təhlükəsizliyinin formalaşmasına töhfəsindən danışıb. Ölkə Prezidentinin də qeyd etdiyi kimi, Azərbaycan regional layihələrdə və Avropanın enerji təhlükəsizliyinin formalaşmasında fəal iştirak edən ölkədir. Azərbaycan artıq TANAP layihəsi vasitəsilə Türkiyəyə ildə 7 milyard kubmetrə yaxın əlavə mavi qaz nəql etmək niyyətindədir. TANAP layihəsinin Avropa sərhəddinə qədər olan hissəsi inşa edilib və artıq Türkiyəyə mavi qazı nəql edir. 2020-ci ildə də Azərbaycan TAP vasitəsilə İtaliya daxil olmaqla, cənubi Avropa ölkələrinə mavi yanacaq nəql edəcək. Bununla da ilkin mərhələdə 10 milyard, ikinci mərhələdə 20 milyard kubmetr mavi qazın nəql edilməsi nəzərdə tutulub. Bütövlükdə Cənub Qaz Dəhlizi Azərbaycan üçün mövcud qiymətlərlə 100 milyard dollardan artıq gəlir vəd edir. Bu kontekstdən yanaşsaq Cənab Prezident Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin əhəmiyyətini, eyni zamanda region və Azərbaycan üçün faydasını təqdim edib”.

V.Bayramov söyləyib ki, bu müzakirələr ölkə rəhbərinin iştirakı ilə həyata keçirilib. “Dövlət başçısı ölkənin bütövlükdə regionda artan nüfuzu və mövqeyi ilə bağlı tədbir iştirakçılarını məlumatlandırıb. Prezident İlham Əliyev konfrans çərçivəsində bir neçə görüşlər keçirib və həmin görüşlərdə Azərbaycanın iqtisadi potensialı qeyri-neft sektorunun inkişaf imkanları investisiya mühitinin yaxşılaşdırılması ilə əlaqədar Azərbaycanda aparılan islahatlarla bağlı məlumatmaları kifayət qədər geniş auditoriya ilə bölüşüb. Bu isə ondan xəbər verir ki, əslində Münhen Konfransı həm də Azərbaycanın iqtisadi potensialı, son illər qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatları bir daha təqdim etmək və bu kontekstdə qeyri-neft sektoruna yeni investisiyaların cəlb edilməsi baxımından əhəmiyyətli olub”.

Ekspert vurğulayıb ki, Azərbaycan Prezidenti iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə və keçirdiyi görüşlərdə Azərbaycanda aparılan islahatlar, Azərbaycan iqtisadiyyatının potensialı, investisiya mühiti ilə əlaqədar aparılan işlərdən danışır. Bu da ölkəyə, eləcə də qeyri-neft sektoruna xarici sərmayənin cəlb edilməsi üçün bir baza formalaşdırır. Bu baxımdan Münhen sammiti həm də bizim üçün qeyri-neft sektoruna xarici sərmayənin cəlb edilməsi baxımından vacib idi. 2020-ci ildə aparılacaq islahatlar çərçivəsində qeyri-neft sektorunun inkişaf etdirilməsi əsas prioritet istiqamətdir. Ona görə də bu cür nüfuzlu tədbirlərdə Azərbaycanın iştirak etməsi vacibdir və Azərbaycanın potensialının təqdim edilməsinə pozitiv təsir göstərir”.

# Amerikalı ekspert: “Ermənistan hökumətinin üzvlərinə qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq edilməlidir”




Nikol Paşinyan üçün ən yaxşı resept Ermənistan qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaqdır.

Bunu amerikalı ekspert Piter Teys Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrini şərh edərkən deyib. O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev parlaq çıxış etdi: “Bu çıxışda ermənilərin tarixi manipulyasiyaları və son otuz il ərzində Azərbaycana qarşı dezinformasiya kampaniyası ifşa olunub. Prezident İlham Əliyev yüksək ixtisaslı, unikal demokratik dövlət xadimidir. Çiçəklənmə, multikulturalizm və heyrətamiz tarixi irs Azərbaycanı hər kəsi ruhlandıran müstəsna məkana çevirir”.

P.Teys qeyd edib ki, N.Paşinyan qarşısıalınmaz korrupsiyadan, mütəşəkkil cinayətkarlıqdan, iqtisadi azalmadan və yüksək işsizlik səviyyəsindən əziyyət çəkən ölkəni təmsil edir:

“Bu cür qaranlıq reallıqlar Ermənistanı Avropanın ən təhlükəli yerlərindən biri, eyni zamanda Cənubi Qafqazda qeyri-sabitliyin mənbəyi edir”.

Ekspert əlavə edib ki, mövcud status-kvo dayandırılmalıdır və BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana qarşı təcavüzünün humanitar və ekoloji nəticələrini aradan qaldırmalıdır:

“Ermənistan hökumətinin üzvlərinə qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq edilməlidir. Yerevan danışıqlarda ciddi şəkildə iştirak edənədək Ermənistana beynəlxalq borcların və qrantların verilməsi dayandırılmalıdır. Ermənistanın Azərbaycana qarşı qlobal miqyasda dezinformasiya kampaniyası və siyasi manevrlərinə son qoyulmalıdır, əks halda Avropa təhlükəsizlik sahəsində ciddi problemlərlə üz-üzə qalacaq. Paşinyan üçün ən yaxşı resept Ermənistan qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaq və səylərini ölkənin iqtisadiyyatının möhkəmlənməsinə yönəltməkdir”.

# Cənubi Koreya KİV-ləri Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının bəyanatından yazır

Cənubi Koreya KİV-ləri Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü ilə bağlı bəyanatına geniş yer verib. “Seoul-City” onlayn qəzeti və “NDNnews” xəbər portalında icmanın bəyanatı barədə geniş materiallar yerləşdirilib.

Bəyanatda qeyd edilir ki, 1988-ci ildə azərbaycanlılara qarşı başlayan etnik təmizləmə siyasəti nəticəsində Ermənistan Azərbaycan ərazisinin beşdəbirini işğal edib. Bir gecədə 613 mülki şəxsin, o cümlədən qadınların, uşaqların və qocaların erməni hərbi birləşmələri tərəfindən vəhşicəsinə qətlə yetirildiyi Xocalı şəhərində törədilən soyqırımı azərbaycanlılara qarşı törədilmiş ən böyük qətliam kimi tarixə yazılıb. Bildirilir ki, BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleyası da daxil olmaqla dünya birliyi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını qəbul edib. “Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını təmin edə biləcək, eləcə də zor gücünə didərgin salınmış azərbaycanlı əhalinin bu ərazilərdəki evlərinə və mülklərinə təhlükəsiz şəraitdə və ləyaqətlə qayıtmaları, ərazilərin bərpası, iqtisadi inkişafı və Dağlıq Qarabağ bölgəsindəki erməni və azərbaycanlı icmalarının bərabərhüquqlu şəraitdə, ayrıseçkiliyə yol verilmədən dinc şəraitdə birgəyaşayışına imkan yaradan, bir sözlə, münaqişənin sülh yolu ilə həllini dəstəkləyir”, - deyə bəyanatda bildirilir.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Bəşər Əsəd Ərdoğanla Putini düşmənə çevirir

***Hə, artıq neçə ildir ki, dünyanın maraqla və təəccüblə izlədiyi Putin-Ərdoğan ittifaqı gerçəkdən çat verir. Onsuz da müəyyən maraqlar əsasında qurulmuş bu ittifaq, Rusiyanın Suriyada Türkiyəni İdlibdən vurub çıxarmaq istəyindən sonra baş verir. Neçə illərdir ki, Vladimir Putinlə Rəcəb Tayyib Ərdoğanın həddən artıq yaxınlaşma və hətta Moskvanın bir NATO üzvü ilə müttəfiqlik səviyyəsində olan mehribançılığı yavaş-yavaş aradan qalxır deyəsən. Əslində, hər şey Bəşər Əsədin Türkiyənin İdlibdəki postlarına etdiyi hücumdan və iki gündə 10-dan çox türk əsgərinin öldürülməsindən sonra başladı. Donald Tramp da fürsəti boşa vermədi və rəsmi Ankaraya tək olmadığını, NATO müttəfiqi kimi Türkiyə ilə həmrəy olduğunu açıqladı. Görəsən, Türkiyə ilə NATO-da müttəfiq olması niyə əvvəllər Ağ Ev sahibinin heç yadına düşmürdü? Sanki Qərb bu vəziyyətdən yararlanıb Ərdoğanı Putinlə tərəfdaşlıqdan qoparmağa can atır. Bəşər Əsəd bu məsələdə açıq-aydın V.Putinə “qəbir qazır”.***

Məsələyə həm də başqa bir prizmadan baxmaq lazımdır. Axı az qala Vladimir Putinlə hər dəfəki görüşündə yerə yıxılıb ayağından öpməyə belə hazır olan B.Əsəd, Türkiyə ordusuna qarşı hücumu özbaşına təşkil edə bilməzdi və buna onun cürəti də çatmaz. O gözəl bilir ki, bunun ağır bədələni canı ilə ödəyər. Çünki V.Putinin maraqlarına zidd olan, onu “yandıran” istənilən addım B.Əsəd üçün hər şeyin sonu olar. Amma belə görünür ki, Türk əsgərini öldürməyə qədər gedib çıxan B.Əsəd cəsarəti Moskvadan alır və dolayısı ilə Rusiya Ərdoğanla bu “dildə danışaraq”, rəsmi Ankaranı İdlibdən çıxıb getməyə səsləyir.

Amma qarşı tərəf bunun tam əksini olaraq addım atır və son üç gündə İdlibdəki postlara minlərlə Türkiyə əsgəri və xüsusi təyinatlıları yerləşdirilib. Ən əsas da güclü hərbi texnikanı bu əraziyə gətirən Türkiyə, artıq geri çəkiləsi variantının qalmadığını, bunun baş verəcəyi təqdirdə dünya birliyindəki nüfuzunu zədələyə biləcəyini ələ anlayır.

Bir yandan da rəsmi Ankara az qala müttəfiq olduqları Rusiyanın onu İdlibdən vurub çıxarmaq istəyini göz önünə gətirib İdlibdə möhkəmlənməyi planlaşdırır. Hər halda, on mindən çox hərbi qüvvəni İdlibə yerləşdirməklə rəsmi Ankara bu məsələdə olduqca istəkli görünür. Belə anlaşılır ki, nə qədər qarşısını almaq üçün V.Putin və R.T.Ərdoğan cəhdlər etsələr də, görünən odur ki, əvvəl-axır bu, baş verəcək. Çünki hər iki ölkənin Suriya torpaqlarında elə strateji maraqları var ki, bunlar vazkeçilməzdir. Xüsusilə Türkiyə üçün Suriya olduqca və olduqca önəmli faktordur. Əgər Rusiya min kilometrlərlə uzaqdan durub gəlib Suriyada ev yiyəsi kimi mövqe tutursa, cəmi yüz metr aralıda sərhədi olan Türkiyənin öz maraqlarını Moskvaya təslim etməsi nəinki qəbuledilməzdir, heç mümkün də deyil axı...

Ən azı ona görə ki, rəsmi Ankara neçə illərdir terror qruplaşmalarının və müxtəlif silahlı qruplaşmaların at oynatdığı Suriya və İraq torpaqlarında özünə qarşı yeni təhlükə cəbhəsinin yaranmasını qəbul edə bilməz. Çünki bunun baş verəcəyi təqdirdə Türkiyə ilk öncə dünya birliyindəki nüfuzunu heçə endirəcək, üstəgəl neçə illərdir ki, “PKK”-ya qarşı apardığı qanlı mübarizədə qazandığı mövqeləri itirəcək, hələ üstəgəl də öz sərhədlərində terror qruplaşmalarının at oynatmasını seyr etməli olacaq. Yuxarıda da dediyimiz kimi, bu variant Türkiyə üçün mümkünsüzdür.

Belə olan halda isə, V.Putin rəsmi Ankaraya İdlibdə güzəştə getməli olacaq. Amma güzəşt edəcəkmi? Çox çətin sualdır. Belə demək mümkünsə həm V.Putin, həm də R.T.Ərdoğan hazırkı sövdələşməni qüvvədə saxlamaq, hər ikisinin maraqlarına uyğun gələn tərəfdaşlığı davam etdirmək üçün çapalayırlar. Amma alınacaqmı, hər ikisi öz maraqlarından vaz keçib bu tərəfdaşlığı düşmənçiliyə çevirməmək üçün nə edəcəklər?,- bunu zaman göstərəcək. Amma görünən odur ki, İdlibdəki proses və B.Əsəd Ərdoğanla Putini düşmənə çevirir.

# Azərbaycanda və xaricdə ən gəlirli sahələr!



*Tələbələr ali təhsil müəssisələrinə qəbul olmadan öncə geniş bir araşdırma aparır və gələcəkdə ona ən çox gəlir gətirəcək sahəni seçməyə çalışır. SİA xəbər verir ki, bu barədə araşdırma aparılıb. Belə ki, həmin araşdırmaya görə, xaricdə və Azərbaycanda böyük iş imkanları və qazancı olan sahələr aşağıdakılardır:*



### 1. İcraçi direktorlar və ya sadəcə şirkət rəhbərləri

Bu sahəyə sahib olanlar dünyanın ən çox qazanan insanlarıdır. Təxminən dünya üzrə illik gəliri 1 milyon dollara çatır, Azərbaycanda isə bu rəqəm CEO-nun yaratdığı şirkətdən asılı olaraq aylıq 1000-20.000 manat arası dəyişir təbiiki bu uğurlu alınmış biznes sahiblərinin gəliridir. Sizin ideyanızdan və yaradacağınız şirkətin fəaliyyətindən asılıdır.

Amma təbii ki, CEO və şirkət rəhbəri deyilən bir dərəcə yoxdur. Bu sahəyə sahib olanlar daha çox Biznesin İdarəçiliyi və Sahibkarlıq sahələrini oxuyanlar bu vəzifəyə layıq olurlar. Bu sahəni həm Azərbaycanda həm də xaricdə oxuya bilərsiniz.




### 2. Kompyuter və İnformasiya Sistem İdarəçiləri. Bu sahənin adı geniş və bəllidir

Dünyanın ən məşhur varlı və qazanan insanları texnologiya sahəsindən gələn insanlardır. Apple, Google, Facebook kimi şirkətləri sıralamaq yetərlidir. Onlar sadə kodlamadan dünyanın ən zəngin insanlarına çevirildilər.

Bu sahə Azərbaycan və dünyanin hər yerində var. Xaricdə bu sahəni oxumaq çox avantajlıdır. Çünki orda inkişaf etmiş texnologiya və sistem var. Təbii ABŞ, İngiltərə və digər avropa ölkələri bu sahədə yetərincə yaxşı təhsil verir.

### 3. Arxitektura və Mühəndis İdarəçiləri



Bütün tikinti və dizaynın başında bu insanlar gəlir. Yaxşı dizayn və mühəndislik bacarığı olan insanlar dünyada ən zənginlər arasındadır. Avropanın ən məşhur şirkətləri ərəb ölkələrinə verdikləri dizayn və etdikləri inşaatla milyonlar qazanır.

Bəzi arxitektur insanlar isə evdə oturub dizayn verərək gəlirlərini əldə edirlər. Yəni bu sahədə kiçikdən böyüyə hər zaman qazanc var.

### 4. Reklam və ya Marketinq İdarəçiləri



Yaradıcı insanların çoxu bu sahədə işləyir. Qazanlar çox yüksəkdir. Çünki o qədər şirkət və rəqabət var ki, indi hər kəsə reklam etmək lazımdır. Güclü reklam edən yaxşı tanıtım edən ən çox qazananlardır. Bunları edən marketinq menecerlər də onlardan az qazanmır. Bunu hər yerdə oxumaq olar amma böyük şirkətlər üçün xaricdə oxumaq məsləhətdir.

### 5. Neft Mühəndisləri



Neft dünyada aktiv olduqca bunu idarə edən mühəndislik sənəti də aktiv və qazanclı olacaqdır. Dünyanın və xüsusilə də Azərbaycanın gəlir əldə etməsində mühəndislərimizin rolu böyükdür. Bu, Azərbaycana ən çox lazım olan ixtisasdır. Və dil önəmi olmadan hər yerdə işləmək mümkündür.

### 6. Pilotçular və Təyyarə Mühəndisləri



Pilotluğun nə qədər gözəl sənət olduğunu bilirsiniz. Həm dünyanı gəzin həm də işinizi görün. Pilotçular dünyanın hər yerində işləyə bilərlər. Amma təbii lisenziya önəmlidir. Avropa və ABŞ lisenziyası hər yerdə keçərlidi.

### 7. Bank Rəhbərləri

Bankları idarə etmək hər zaman gözəl qazanc mənbəyidir. Amma bank rəhbəri olmaq üçün bir az daha çox çalışmaq, gözəl idarəçilik bacarığına aid olan sahələri bitikmək lazımdır. Bunun üçün Bank İdarəçiliyi, BBA, MBA və ya Maliyyə İdarəçilik kimi sahələri bitirmək yetərlidir.

### 8. Fəza Mühəndisləri



Dünyanın hər zaman ehtiyac olduğu ixtisas. Astronomiya sahəsini sevənlər üçün çox yaxşı seçimdir. Bakıdan bu sahədə oxuyub işini avropada davam etdirən insanlar var və bu, çox sevindirici haldır. Fəza mühəndisliyi avropada özəlliklə Münhen universitetində çox güclüdür. Bakıda bu sahə yoxdur. Təyyarə mühəndisləri ən çox qazananlar arasındadır.

### 9. İnsan Resusrları Rəhbəri



Çox yüksək gəlirli kimi görünməsə də, Azərbaycanda ən önəmli işdir. Bakıda bu sahəyə çox ehtiyac var. Bakıda öncələr insan resursları deyə bir sahə yox idi. Xarici şirkətlər gələndən sonra bu sahə moda mindi. İndi Bakıda ən önəmli işlərdən biridir. Xaricdə zamanında bu sahəni bitirənlər indi SOCAR kimi məşhur şirkətlərdə insan resursları şöbəsinin rəhbəridir.

### 10. Tibb və ya həkimlik



Həkimlik sahəsi dünyanın tarix boyu ən hörmətli və qazanclı sahəsidir elə bir insan ola bilməz ki, o, il ərzində heç vaxt həkimə müraciət etməsin. Ona görə də həkimlərə daim tələbat olmuşdur və olacaqdır (təbii ki, savadlı həkimə). Həkim olmaq üçün ölkəmizdə dövlət və özəl xəstəxanalarda çalışmaq mümkündür. Özəl xəstəxanalarda həkimlərin orta aylıq maaşı 2000 manat civarındadır. Dövlət xəstəxanalarında isə dünyanın bütün ölkələrində özəl xəstəxanalarla müqayisədə maaş aşağıdır.

Həkim olmaq üçün hamımız bilirik ki, ölkəmizdə yeganə tibbi təhsil verən müəssisə Azərbaycan Dövlət Tibb Universitetidir. Burada qəbul TQDK 4-cü qrup üzrə aparılır və keçid balı 500 baldır. Təhsil müddəti isə dünyanın bütün yerlərində olduğu kimi 6 ildir. Yəni həkim olmaq üçün 6 il əziyyət çəkəcəksiniz, amma sonunda ömür boyu rahat iş tapa biləcəksiniz. Xaricdə isə tibb ixtisaslarına qəbul həm proses olaraq çətindir, həm də təhsil haqqı yüksəkdi.

Tibb üzrə ən yaxşı ölkələr isə Amerika, İngiltərə, Almaniya və Türkiyədir. Avropa və Amerika ölkələrində təhsil haqqı 25 min dollardan başlayır.

ARAŞDIRMA

**Nigar Məmmədova**

# Dünya Xocalıya biganə qalmamalıdır

***Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. Xocalı soyqırımı Xatın, Lidisa soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı bir hadisədir. Azərbaycan xalqı 200 il ərzində, erməni millətçi-şovinistlərinin, davamlı olaraq, etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb. Azərbaycanlılar tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib və bütün bunlar ermənilər tərəfindən törədilmiş kütləvi qırğınlarla müşayiət olunub.***

Tarixi faktlar göstərir ki, əzəli Azərbaycan torpaqlarında - indiki Ermənistanda, Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı yeddi rayonda yaşayan azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, doğma yurdlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. "böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların hərbi-siyasi köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.

SSRİ-nin süqutundan dərhal sonra isə yenicə yaranmış Ermənistan Respublikasının ilk addımları dövlət səviyyəsində zor tətbiqi və Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə etməkdən ibarət oldu. Bütün bunların nəticəsində Azərbaycan Respublikası ərazilərinin təqribən beşdə biri işğal edildi, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan artıq azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Bu təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı çoxsaylı müharibə, insanlıq əleyhinə cinayətlər, o cümlədən, soyqırımı aktları törədildi. Bu cinayətlərə görə, məsuliyyəti, məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

## BƏŞƏRİYYƏTƏ VƏ İNSANLIĞA QARŞI TÖRƏDİLMİŞ QANLI CİNAYƏT

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və texnikasının, bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini zəbt edərək, Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirib. 7000 əhalisi olan Xocalı bir gecənin içində yerlə-yeksan olub.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz ədalətli hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlərini, o cümlədən, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib. XX əsr dünya tarixinin ən qəddar soyqırımı aktı olan Xocalı faciəsi haqqında tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində bünövrəsini Ümummilli Lider Heydər Əliyevin qoyduğu siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı akti kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib.

Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində öz əksini tapır. Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir və onların yolverilməz olduğunu bildirirlər. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə və insanlığa qarşı törədilmiş qanlı cinayətdir. Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürək ağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır.

## İNSANLIĞA QARŞI CİNAYƏT ƏMƏLLƏRİ DÜNYA ÖLKƏLƏRİ TƏRƏFİNDƏN QƏTLİAM KİMİ QİYMƏTLƏNDİRİLİR



2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də, ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsinin "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" olduğunu müəyyən edib.

Dünyanın müxtəlif qitələrində dərc olunan məqalələrdə, hazırlanan verilişlərdə, çəkilən filmlərdə Xocalı soyqırımının dəhşətləri qeyri-millətlərə təqdim olunur, bəşəriyyətə və insanlığa qarşı törədilmiş soyqırımının səbəbkarları dünya ictimaiyyəti tərəfindən lənətlənir.

Xocalı faciəsinin dəhşətlərindən bəhs edən, 2017-ci ildə Los-Anceles şəhərində amerikalı kinematoqraflar tərəfindən çəkilmiş "Zülmətdən qaçarkən" sənədli filmi isə ABŞ-ın Kaliforniya ştatının bir sıra ictimai kanallarında nümayiş etdirilib. Qeyd edək ki, bu film ABŞ-da Xocalı soyqırımı mövzusunda çəkilmiş ilk ekran əsəridir. Əsas süjet xətti Xocalı soyqırımının canlı şahidləri ilə aparılmış müsahibələr üzərində qurulmuş bu film Şimali Kaliforniyanın San Fransisko, San-Xose, Kampbel, Mauntin Vyu, Los-Altos, Palo-Alto, Menlo Park, Aterton və digər şəhərlərində nümayiş olunub.

## ÜMUMAVROPA QARABAĞ MİTİNQİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARA ÇAĞIRIŞLAR EDİLƏCƏK

Bu gün dünyanın 30-a yaxın ölkəsində fəaliyyət göstərən diaspor təşkilatlarının təşəbbüsü və Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə fevralın 22-də saat 13:00-da Almaniyanın Berlin şəhərindəki Brandenburq qapıları yaxınlığındakı Paris meydanında Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar ümumavropa Qarabağ mitinqi keçiriləcək. Aksiyaya Azərbaycan, Almaniya, Niderland, Macarıstan, Polşa, İspaniya, İtaliya, Belçika, İsveç, Latviya, Litva, Estoniya, Çex Respublikası, Avstriya, İsveçrə, Norveç, Finlandiya, Fransa, Rumıniya, Xorvatiya, Böyük Britaniya, Yunanıstan, Moldova, Ukrayna, Gürcüstan, Türkiyə, ABŞ, Kanada və bir sıra başqa ölkələrdə yaşayan soydaşlarımız, eləcə də Azərbaycana dost münasibəti bəsləyən xalqların diasporlarının üzvlərinin qatılacağı gözlənilir.

Xocalı soyqırımının 28-ci ildönümü ərəfəsində keçiriləcək mitinqin iştirakçıları "Qarabağ Azərbaycandır!", "Biz terrora yox deyirik!", "Azərbaycan ədalət tələb edir!", "Xocalıya biganə qalma!", "Dinc və günahsızların qatillərinə ar olsun!", "Erməni yalanlarına dur de!", "İşğalı dayandırın!", "Qarabağ haqqımızdır!" kimi şüarlarla beynəlxalq təşkilatlara çağırış edəcəklər.

Aksiya iştirakçıları 28 il əvvəl ermənilərin Xocalıda törətdikləri soyqırımına beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilməsini, işğal olunmuş Azərbaycan torpaqlarının geri qaytarılması üçün Ermənistana təzyiq göstərilməsini, yurd-yuvalarından didərgin düşmüş azərbaycanlıların pozulmuş hüquqlarının bərpasını, münaqişə ilə bağlı məlum beynəlxalq sənədlərə Ermənistanın riayət etməsini tələb edəcəklər.

Ümumavropa Qarabağ mitinqinin sonunda yekun sənədin qəbulu və bir sıra beynəlxalq təşkilatlara ünvanlanması planlaşdırılıb.

Ankaradakı Beynəlxalq İnsan Hüquqları və Demokratiya Dərnəyində isə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunan konfrans keçirilib.

Tbilisidəki M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunan "Xocalı: tarixin qan yaddaşı" adlı sərgi açılıb.

Dünya mətbuatı Xocalıdan yazır. Cənubi Koreyanın "The Korea Post" qəzetində "Ermənistanın Azərbaycana hərbi təcavüzü fonunda azərbaycanlılara qarşı törədilmiş soyqırımı" sərlövhəli məqalə çap olunub. Məqalədə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin bütün beynəlxalq hüquq normalarını pozaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərindəki mülki insanlara hücum etdikləri yazılıb. Ermənistanın sabiq prezidenti, Xocalı soyqırımı iştirakçısı Serj Sarkisyanın "Xocalıdan əvvəl azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki insanlara əl qaldırmazlar. Amma biz bu stereotipi sındıra bildik" fikri məqalədə əksini tapıb. Bildirilib ki, həmin günlərdə "Sunday Times", "Financial Times", "Times", "Izvestiya", "Le Monde" kimi nüfuzlu nəşrlər Xocalıda baş verən dəhşətli hadisələr barədə məqalələr çap ediblər.

Xalqımız əmindir ki, ədalət mütləq yerini tutacaq, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Azərbaycanın enerji siyasəti - regiondan Avropa məkanına doğru

## *Prezident İlham Əliyev: "Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış etməkdədir"*

***Bu gün Azərbaycan iqtisadiyyatı durmadan inkişaf edir, yeni-yeni layihələr, dövlət proqramları reallaşır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimindəki nitqində demişdir: "Azərbaycanda bundan sonra da iqtisadi islahatlar davam etdiriləcəkdir. İqtisadi inkişaf templərinə görə son on il ərzində Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır".***



Bəli, bu gün Azərbaycanın bütün sahələrində sürətli inkişaf gedir. O cümlədən enerji sahəsində. Məlum olduğu kimi, Azərbaycan özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan birinə çevrilib. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə gerçəkləşdirilmir. Məhz buna görə də, Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış etməkdədir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması, məhz regional miqyasda hazırkı əməkdaşlığın səmərəli nəticələridir. Şübhəsiz ki, regionda bu günə qədər həyata keçirilən və əməkdaşlığa təkan verən layihələrdə Azərbaycanın siyasi iradəsi və qətiyyəti öz sözünü deyib. Azərbaycan dünyanın aparıcı dövlətləri tərəfindən etibarlı strateji tərəfdaş kimi qiymətləndirilir. Bu gün müstəqil enerji siyasəti ölkəmizin beynəlxalq arenadakı mövqeyini, həmçinin regionun və regionətrafı coğrafiyanın geostrateji təhlükəsizliyini daha da gücləndirir. Həmçinin, Azərbaycanın səmərəli enerji siyasəti yeni əməkdaşlıq platformaları müəyyənləşdirməklə yanaşı, Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə strateji töhfələr verir.

**"Bizimlə Cənub Qaz Dəhlizi üzərində işləyən bəzi ölkələrin tarixdə ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı olacaq"**

Azərbaycan Prezidenti İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada çıxışı zamanı çox mühüm məqamlara toxundu. Dövlət başçısı Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsas istiqamətlərindən bəhs edərək, ölkəmizin regional və beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin olunmasında ən vacib tezisləri söylədi. Ən vacib tezis olan TANAP layihəsi ildə bağlı bir çox məsələlərə aydınlıq gətirdi: "Ötən il ölkəmiz və düşünürəm ki, Avropanın enerji təhlükəsizliyi üçün əlamətdar olub. Çünki biz tərəfdaşlarımızla birlikdə artıq Türkiyə-Yunanıstan sərhədinə çatan, əsas qaz kəməri olan TANAP-ı uğurla başa çatdırdıq. Bu, o deməkdir ki, Cənub Qaz Dəhlizinin dörd seqmentindən üçü artıq uğurla tamamlanıb. Sonuncu seqmentə gəlincə, TAP layihəsi bu ilin sonunda tamamlanacaq. Beləliklə, 3,5 min kilometr uzunluğunda inteqrasiya olunmuş kəmər sistemi artıq istismara veriləcək. Bu, regionumuzda əsas infrastruktur layihələrindən biridir. Bu, əlbəttə ki, bizim üçün, tərəfdaşlarımız üçün, Avropanın enerji təhlükəsizliyi üçün çox vacibdir.odur ki, artıq TANAP layihəsi dördüncü mərhələdə bitəcək və Azərbaycan qazı tarixdə ilk dəfə olaraq Avropaya çatdırılacaq."

Ölkə başçısı, həmçinin Bakı-Tbilisi-Ceyhan neft kəmərinin boru xətti vasitəsilə bir çox ölkələrə neftimizin getdiyini və bu gün isə ilk dəfə olaraq Avropa ölkələrinin də Azərbaycan qazını alacaqların dedi: "Bakı-Tbilisi-Ceyhan neft kəməri uzun illərdir ki, işləyir. Bu boru xətti vasitəsilə bir çox ölkə neftimizi alır. İndi isə ilk dəfə olaraq Avropa ölkələri Azərbaycan qazını alacaqlar. Qeyd etdiyim kimi, bu hadisənin siyasi əhəmiyyəti ondadır ki, bır sıra ölkələrlə siyasi əlaqələrimiz güclənəcək. Eləcə də, iqtisadi və ticari əlaqələrə də müsbət təsir edəcək".

**"Bizim timsalımızda Azərbaycan qazının Avropa bazarına, Türkiyə bazarına nəqli yeni mənbə və yeni marşrutdur"**

Dövlət başçısı, eyni zamanda növbəti dövr üçün görüləcək işlər və Azərbaycan qazının Avropa, Türkiyə bazarlarına nəqli ilə də bağlı məlumat verib: "Bizimlə Cənub Qaz Dəhlizi üzərində işləyən bəzi ölkələrin tarixdə ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı olacaq. Alternativ mənbə təkcə marşrut deyil. Çünki təhlükəsizlikdən danışanda biz mənbədən danışmalıyıq. Bizim timsalımızda Azərbaycan qazının Avropa bazarına, Türkiyə bazarına nəqli yeni mənbə və yeni marşrutdur. Düşünürəm ki, bu, bizim layihəmizin üstünlüyüdür və buna görə də Avropa İttifaqı ona güclü dəstək verir. Bu səbəbdən də yekun tamamlanma işlərinin bu ilin sonunadək olacağına baxmayaraq, biz Cənub Qaz Dəhlizini artıq tamamlanmış layihə hesab edə bilərik".

Beləliklə, Azərbaycan iqtisadiyyatı durmadan inkişaf edir. Yeni-yeni layihələr, Dövlət proqramları reallaşır. Enerji daşıyıcılarla təminat yaxşılaşır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının andiçmə mərasimində dediyi fikri bir daha qeyd etmək istərdik: "Azərbaycanda bundan sonra da iqtisadi islahatlar davam etdiriləcəkdir. İqtisadi inkişaf templərinə görə son on il ərzində Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır".

Bir sözlə, son 16 il ərzində Azərbaycan iqtisadiyyatı durmadan inkişaf edir, yeni-yeni layihələr, dövlət proqramları reallaşır, enerji daşıyıcılarla təminat yaxşılaşır. Aparılan inqilabi islahatlar Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş, praqmatik uğurlu siyasətinin reallıqlarıdır.

***RƏFİQƏ KAMALQIZI***

## "Keçən il ölkədəki bərpaolunan enerji mənbələrinin 7,3 faizindən istifadə edilib"




Ötən il Azərbaycanda bərpaolunan enerji mənbələrinin 7 faizindən istifadə olunub. Elektrik enerjisinin 93 faizi isə təbii qaz hesabına istehsal edilib. AZƏRTAC xəbər verir ki, bu barədə Energetika nazirinin müavini Elnur Sultanov jurnalistlərə müsahibəsində deyib. O bildirib ki, hazırda Azərbaycanda bərpaolunan enerjinin qoyuluş gücünün enerji sistemindəki payı 17 faizdir. Respublikada elektrik enerjisinin əldə edilməsində daş kömürdən və dizeldən demək olar ki, istifadə olunmur.

## Sosial xidmətin inkişafına dair Milli Strategiya layihəsi hazırlanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "2020-2026-cı illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya"nın layihəsi hazırlanıb. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, layihədə strategiyanın əsas məqsədi kimi sosial xidmətlərin təşkilati, iqtisadi və hüquqi mexanizmlərinin modernləşdirilməsi əsasında həmin xidmətlərin kifayət qədər keyfiyyətli və ehtiyacı olan vətəndaşlar üçün əlçatanlığının artırılması, beynəlxalq norma və standartlara uyğun təkmilləşdirilməsi, ünvanlılığının təmin edilməsi qeyd olunur. Strategiyanın əsas vəzifələri sırasına sosial xidmətin göstərilməsi sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, sosial xidmət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, qabaqcıl dünya ölkələrinin təcrübəsinə əsaslanan yeni sosial xidmət modellərinin yaradılması və tətbiqi, müvafiq sahədə kadr potensialının gücləndirilməsi və s. daxildir.




# BTQ ilə sərnişin daşınması nə vaxt həyata keçəcək?

"Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə sərnişin daşınmalarının təşkili ilə bağlı işlər həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibi Natavan Bayramova deyib. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzrə tranzit yüklərin daşınması ilə yanaşı, sərnişin daşınması da nəzərdə tutulurdu. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov mətbuata verdiyi açıqlamada yeni qatarın bir neçə dəfə sərnişin olmadan hərəkət edəcəyini və sınaqdan keçiriləcəyini və 2019-cu ilin avqust ayında sərnişin daşınmasının həyata keçiriləcəyini bildirmişdi.

N.Bayramova bildirib ki, Bakı-Tbilisi-Qars marşrutu ilə sərnişin qatarı fəaliyyətə başlayacağı ərəfədə onun hərəkət qrafiki barədə əvvəlcədən ölkə vətəndaşlarına KİV vasitəsilə ətraflı məlumat veriləcək: "Həmin istiqamət üzrə sərnişin qatarlarının sınağı keçirilib. Müvafiq sənədlər hazırlanıb və onlar imzalandıqdan sonra sərnişin daşımalarına start veriləcək. Bunun üçün İsveçrənin "Stadler Rail Group" şirkəti arasında imzalanan müqaviləyə əsasən 10 vaqon Azərbaycana gətirilib, ikinci mərhələdə daha 10 vaqonun gətirilməsi nəzərdə tutulur".



Qeyd edək ki, Bakı-Tbilisi-Qars marşrutu üzrə hərəkət edəcək sərnişin qatarları üçün Azərbaycan tərəfi İsveçrənin "Stadler" şirkətinə 30 ədəd yataq tipli vaqon sifariş edib. Vaqonlar "standart", "komfort", "biznes" və "restoran" olmaqla dörd kateqoriyada istehsal olunur. Kateqoriyasından asılı olaraq vaqonlar 10, 20 və 32 nəfərlikdir. Ümumilikdə qatarda bir istiqamətə 246 yer nəzərdə tutulub.

***Nigar Məmmədova***

# İnqilabi sosial islahatlar dünyaya nümunədir

## Bu gün dünya Sosial Ədalət Gününü qeyd edir

***Artıq neçə ildir ki, 20 fevral tarixində bütün dünyada Sosial Ədalət Günü qeyd olunur. Milyonlarla insanların qeyd etdiyi bu gün BMT-nin Baş Məclisi tərəfindən dünya ictimaiyyətinin yoxsulluqla mübarizə işində səylərini artırmaq və hər kəs üçün iş yerləri, gender bərabərliyi və insan hüquqlarına hörmətə nail olmaq məqsədi ilə yaradılıb. Müasir dünya cəmiyyətlər daxilində və cəmiyyətlərarası həmrəylik, harmoniya və bərabər imkanlar aşılamaq üçün yoxsulluq, ayrı-seçkilik və işsizliklə məşğul olmağın əhəmiyyətini dərk edir. Daha sabit, ədalətli və təhlükəsiz dünya qurmaqda sosial ədalətin vacibliyi əsas məsələlərdəndir. Hər kəs üçün sosial ədalətə nail olmaq istiqamətində BMT-nin əsas məqsədi inkişaf və insan ləyaqətini yaymaqdır. 2009-cu ildə fəaliyyətə başlamış Sosial Müdafiə Təşəbbüs Platforması hər kəs üçün əsas sosial zəmanət əldə etmək naminə ümumi prioritetlər müəyyənləşdirən bir BMT sistemidir.***



### ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN SİYASƏTİN MƏRKƏZİNDƏ MƏHZ AZƏRBAYCAN VƏTƏNDAŞLARI, ONLARIN MARAQLARI DAYANIR

Bəli, bu gün dünya ölkələri ilə yanaşı, Azərbaycanda da Dünya Sosial Ədalət Günü qeyd olunur. Dünyanın bir parçası olan Azərbaycan bütün beynəlxalq tədbirlərdə iştirakçı, söz sahibi olduğundan müasir dünyanın çağırışlarına da yüksək səviyyədə cavab verir. Ölkəmizdə mövcud olan vəziyyət əminliklə ifadə etməyə imkan yaradır ki, Azərbaycanda sosial ədalət prinsipi mövcuddur. Təbii ki, bu sosial ədalətə nail olmaqda ölkəmizdə həyata keçirilən islahatları qeyd etməliyik. Həyatımızın bütün sferaların əhatə edən islahatlar öz nəticəsin verib və bu davamlıdır. Ölkəmizin maliyyə imkanlarının güclənməsi regionların sosial-iqtisadi inkişafına, eləcə də insanların sosial rifah halının daha da yaxşılaşdırılmasına səbəb olub. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Azərbaycan Prezidentinin həyata keçirdiyi iqtisadi və sosial sahədə, eləcə də struktur islahatları vətəndaşların məmnunluğuna səbəb olub. Azərbaycan Prezidenti sosial təminatın iqtisadi imkanlardan asılılığını dəfələrlə qeyd edərək vurğulayır ki, iqtisadi inkişaf nə qədər yüksək templə artsa, sosial təminat da bir o qədər yaxşılaşacaq. Əlbəttə ki, iqtisadi yüksəliş islahatların reallaşmasına zəmin yaratmışdır. Davamlı olaraq vətəndaşların rifahının daha da yüksəldilməsinin və qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsinin daim dövlətin diqqət mərkəzində olduğunun əyani göstəricisidir. Ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar miqyasına görə heç bir ölkədə müşahidə olunmur. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərə, qaçqın və məcburi köçkünlərə qayğı, minimum əməkhaqqının, minimum pensiyanın və sosial müavinətlərin artırılması istiqamətində görülən işlər, fiziki şəxslərin problemli kreditlərin həll olunması dövlətin sosial siyasətinin nümunəsidir. Azərbaycanda aparılan sosialyönümlü siyasət, əhalinin öz güzəranını təmin etmək üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına şərait yaradıb. Bu gün sahibkarlara diqqət göstərilir, onlara güzəştli kreditlər verilir, fermerlərə subsidiyalar ayrılır ki, bu da ölkədə sahibkarlığın inkişafına münbit şəraitin olduğunu əks etdirən amillərdir. Aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaradılıb. Azərbaycanda məhz dövlət səviyyəsində və bütün ölkəni əhatə edə biləcək şəkildə, geniş formada özünüməşğulluq proqramı icra olunur. Bu sahədə görülən tədbirlər ölkədə ailə biznesinin genişlənməsində, nəticə etibarilə sosial-iqtisadi inkişaf proseslərində vətəndaşların fəal iştirakının təmin olunmasında, kiçik və orta sahibkarlığın inkişafında növbəti irəliləyişlərə əsas yaradır.

### DOST MƏRKƏZLƏRİ ƏMƏK, MƏŞĞULLUQ, SOSİAL MÜDAFİƏ SAHƏLƏRİ ÜZRƏ XİDMƏTLƏRDƏ VƏTƏNDAŞ MƏMNUNLUĞU YARADIR

Qarşıya qoyulan bütün vəzifələrin həyata keçirilməsi üçün öz iqtisadiyyatını uğurla inkişaf etdirən Azərbaycan yüksəliş dövrünü yaşayır. Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə güclənməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb.

Prezident İlham Əliyevin islahatlar proqramına uyğun olaraq, eyni zamanda, dövlət sosial xidmətləri sisteminin mütərəqqi beynəlxalq təcrübələrə və innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsi istiqamətində ardıcıl işlər aparılır. DOST adlanan daha bir innovativ xidmət növü də vətəndaşlarda məmnunluq yaradıb. Prezident İlham Əliyevin Fərmanı ilə yaradılan DOST mərkəzləri əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə xidmətlərdə vətəndaş məmnunluğuna tam təminat verir.



2025-ci ilə kimi ölkə ərazisində, ümumilikdə, 31 DOST mərkəzi açılacaq və bununla da Azərbaycanın bütün ərazisi və bütün vətəndaşları DOST xidmətləri ilə əhatə olunacaq. Bu xidmətlərə ehtiyac duyan hər kəs ondan asanlıqla yararlana biləcək. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, “Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək”.

### GENDER BƏRABƏRLİYİ YENİ DÖVRÜN TƏLƏBLƏRİ SƏVİYYƏSİNDƏ QURULUB

Qeyd etdiyimiz kimi, Dünya Sosial Ədalət Günü bu və ya digər məsələlərlə yanaşı, gender bərabərliyi və insan hüquqlarına hörmətə nail olmaq məqsədi də daşıyır. Bütün dünyaya inkişaf modelini təqdim edən ölkəmizdə gender bərabərliyi də nümunədir. Azərbaycan xalqı tarixən özünəməxsus dəyərlərə, adət-ənənələrə bağlı olan yüksək zəkalı, nəcib və xeyirxah xanımları ilə qürur duyub. Müasir dövrdə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsində, siyasi-hüquqi, sosial-iqtisadi sahələrdə və beynəlxalq münasibətlərdə yeni uğurların əldə olunmasında qadınlarımız da yüksək təşəbbüskarlıq və fəallıq göstərirlər. Cəmiyyətin ictimai-siyasi həyatında və idarəetmə sistemində fəal mövqe tutan qadınlar müstəqil respublikamızın inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi naminə əzmlə çalışırlar.

Azərbaycanda gender siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsinin hüquqi əsasını məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi altında 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycanın Konstitusiyası təşkil edir. Əsas Qanunda gender məsələsi ilə bağlı bütün problemlərin qanunvericilik və hüquq tətbiqi səviyyəsində qarşısının alınması üçün zəruri hüquqi baza mövcuddur. Qadın siyasətinin daha çevik və işlək mexanizmlər əsasında gerçəkləşdirilməsi, yeni dövrün tələbləri səviyyəsində qurulması məqsədilə son 16 ildə beynəlxalq təcrübə də dərindən öyrənilib.

Azərbaycan Respublikası bir sıra mühüm beynəlxalq sazişlərə qoşularaq bu sahədə qanunvericiliyini təkmilləşdirmək imkanı əldə edib. Azərbaycan qadınının ictimai-siyasi fəallığı artıb, cəmiyyətimizin inkişafı, dövlət quruculuğu prosesində onların rolu güclənib. Bütün dövlət strukturlarında qadınların dövlət idarəçiliyində rolunun artırılması istiqamətində ciddi addımlar atılıb. Hazırda ölkədə onlarla qeyri-hökumət qadın təşkilatı fəaliyyət göstərir. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən - qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# BSU-nun beynəlxalq əlaqələrinin genişləndirilməsində növbəti uğurlu addım



*Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində fəaliyyət göstərən 323 saylı Beynəlxalq Münasibətlər Gimnaziyasının direktoru Alla Jukova ilə görüşüb. Görüşdə BSU-nun Tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov, Elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov, Ukrayna Tədris-Mədəniyyət Mərkəzinin müdiri Lesya Kərimova, Azərbaycanda Ukrayna Konqresinin İdarə Heyətinin sədri Yuri Osadçenko iştirak ediblər.*

Görüşdə BSU ilə Kiyev şəhəri 323 saylı Beynəlxalq Münasibətlər Gimnaziyası və Yaroslav Mudrı adına Beynəlxalq Xeyriyyə Fondu arasında elm və təhsil sahəsində üçtərəfli əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqavilənin imzalanmasında məqsəd üçtərəfli münasibətlərin inkişafı, Azərbaycan Respublikasında ukrayna dilini, mədəniyyətini, ədəbiyyatını, tarixini və ənənələrini tanıtmaq, ortaq tədris və mədəniyyət layihə və proqramlarının həyata keçirilməsi, istedadlı tələbə və gənclərə dəstək verilməsi, tələbə və müəllim heyətinin mübadiləsini reallaşdırmaqdır. Müqavilədə Ukrayna mədəniyyətinin Azərbaycan ərazisində və Azərbaycan mədəniyyətinin Ukrayna ərazisində tanıdılması, pedaqoji sahədə təcrübənin mübadiləsi, tərəflərin seminarlarda, konfranslarda, dəyirmi masalarda iştirakı, beynəlxalq tədris və innovasiyalar sahəsində bacarıqların öyrənilməsi məqsədilə nümayəndə heyətlərinin ezam edilməsi, hər iki ölkənin tarix və mədəniyyəti ilə tanışlıq, əməkdaşlıq çərçivəsində Azərbaycanın və Ukraynanın istedadlı gənclərinə dəstək verilməsi, eləcə də təhsil və mədəniyyət sahəsində digər fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulub. Rektor Nurlana Əliyeva əməkdaşlıq haqqında imzalanmış bu müqavilənin bütün tərəflər üçün faydalı olacağını xüsusi vurğulayıb və hamıya uğurlar arzulayıb.

**ZÜMRÜD BAYRAMOVA**

# Paşinyanın Münhen rüsvayçılığı erməni mətbuatında



*Münhendə Paşinyanın məntiqsiz, savadsız, aciz, yarıtmaz çıxışını dinləyən hər kəs istər-istəməz düşünürdü ki, Ermənistanın baş naziri müharibənin məğlub, xəcalətli və itirən tərəfini təmsil edir. Ermənilərin həmin debatlarda yaşadığı utanc sayəsində Paşinyan təkcə siyasi rəqibləri tərəfindən deyil, həm də öz həmvətənləri tərəfindən də sərt tənqid olunur və işğalçı dövlətin hökumət başçısını tənqid edənlərin ordusu bir qartopu kimi böyüməkdə davam edir.*

Ermənilər özləri də etiraf edirlər ki, bir vaxtlar Sarkisyanın cinayətkar-oliqarxik anti-xalq rejiminin devrilməsini səmimi qarşıladılar və yeni hökumətin Ermənistanda həyatı daha yaxşı, daha dolğun və təhlükəsiz edəcəyinə ümid etdilər. Ermənilər təəssüf hissi keçirirlər ki, təxminən 2 ildə həyatlarının yaxşılaşması əvəzinə daha da çətinləşib, mürəkkəbləşib və hətta beynəlxalq aləmdə də məğlubiyyətləri artıb. Səbəb olaraq, onlar bir küçə nümayişçisinə, onun populist çıxışlarına aldandıqlarını deyirlər və bu mənada haqlıdırlar da.

Ermənistanda etiraf olunur ki, görüşlərdə Paşinyan yaxşı görünmür. "Bu adamın nüfuzlu beynəlxalq məkanlarda özünü göstərə bilməyəcəyi dərhal bəlli olur" deyə bir fikirdədir indi bütün ermənilər. İndi az qala bütün ermənilər Paşinyana qarşı ayağa qalxıblar və ona deyirlər ki, sosial şəbəkələrdə, yaxud Ermənistanın küçələrində hay-küy salmaq, yaxa cırmaqla beynəlxalq platformalarda ölkəsini təmsil etmək arasında yerdən göyə qədər fərq var və bu Nikola görə deyilmiş. Sübut olaraq, ən azından sonuncu dəfə Münhendəki rüsvayçılığını da nümunə gətirirlər.

Hətta ermənilər Azərbaycan Prezidentinin ingilis dilində mükəmməl danışdığını da etiraf edərək, kəkələdiyini də öz baş nazirlərinə irad tuturlar. Yəni təkcə dünya ictimaiyyəti deyil, ermənilər özləri də etirad etmək məcburiyyətindədirlər ki, erməni baş nazir Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevdən hər mənada dəfələrlə aşağı, dəfələrlə zəif, dəfələrlə savadsız, məlumatsız və aciz vəziyyətdə idi ki, bu onun məhz rüsvayçılığı anlamına gəlir. İndi ermənilər açıq aşkar etiraf edirlər ki, baş nazirlərinin acınacaqlı şəkildə ingilis dilində uyğun sözləri necə axtardığını görmək bütün ermənilər üçün olduqca ağrılı idi. Belə bir nüfuzlu platformada dövlət başçısının belə hərəkət etməməsi bir növ ermənilərin yarasına bir az da duz basıb.

Ermənistan mətbuatı açıq şəkildə etiraf edir ki, Azərbaycan Prezidenti Münhendə Paşinyan və ümumiyyətlə Ermənistan üzərində mükəmməl qələbəyə imza atdı və bu görüşdə diplomatik qələbə qazandı. Ermənilər özləri belə Paşinyan komandasının, onu yalandan tərif edənlərin bir sıra cəfəngiyyat təriflərini də gülməli hesab edir. Hətta Ermənistana məxsus mətbuat səhifələrində sual olunur ki, doğrudanmı hakimiyyətdə bu cür savadsızın, Paşinyan kimi aciz birisinin nüfuzunu qorumağa ümid edən axmaqlar varmı? Eyni zamanda, sual olunur ki, yoxsa onlar kor və kar olduqlarını və heç nə görmədiklərini iddia edirlər?

Bir sözlə, Paşinyan indi hamıdan çox elə ermənilərin özlərinin hədəfinə çevrilib və bir növ küçə nümayişçisinin yalanlarının üstünü açan, onun bir heç olduğunun növbəti dəfə şahidi olan, onun özü tərəfindən aldadılmış olduğunu dərk edən rəzil bir xalq baş nazirini hədəfə alıb. Çünki meydanlarda verdiyi yalançı vədlərinə inanan, küçə nümayişçisinin arxasınca gedən, dövlət çevrilişi yolu ilə ona baş nazir kürsüsünü bağışlayan xalq, erməni xalqı Paşinyanın Münhen rüsvayçılığını, nəticədə isə öz rüsvayçılığını həzm edə bilmir.

**İnam HACIYEV**

# Azərbaycanın Xocalını soyqırımını tanıtmaqla ermənilərə vurduğu zərbə

***"1992-ci ilin fevralında erməni silahlılarının Azərbaycanın Xocalı şəhərində mütləq dinc və silahsız azərbaycanlılara qarşı törətdikləri vəhşi cinayətlərin əsl mahiyyətini dünyaya tam şəkildə açmağı bacarmaq diplomatiyamızın misilsiz qələbələrindən biridir. Azərbaycan diplomatiyası Xocalı cinayətinin soyqırım mahiyyətini sübut etməklə bütün türk dünyasının mənafeyinə uyğun tarixi işə imza atıb". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.***



O bildirib ki, Xocalı soyqırımından 28 il ötsə də Ermənistanın dövlət elitası, ekspert və siyasi dairələri hələ də hadisənin ermənilər tərəfindən törədildiyini inkar etməyə və hətta guya azərbaycanlıların özləri tərəfindən törədildiyi kimi absurd bir tezisi dünya gündəmində saxlamağa çalışırlar: "Bu günlərdə Baş nazir Paşinyan Azərbaycan prezidenti ilə Münhen debatında bu cəhdlərə uğursuz şəkildə yenidən baş vursa da, Prezident Əliyevdən öldürücü zərbə aldı. Xocalı faciəsi ilə bağlı Azərbaycanın hüquqi, siyasi və diplomatiya strategiyası Ermənistana tam qalib gəldi".

Ekspert söyləyib ki, Ermənistanın Xocalı strategiyası iki əsas saxta və riyakar tezisin əsaslandırılmasına xidmət edirdi: "Guya Xocalı hadisələri adi cinayətdir və azərbaycanlıların özləri tərəfindən daxili siyasi proseslərə yönüm vermək üçün törədilib. Lakin Azərbaycan Ermənistanın saxta tezislərini və strategiyasını tam ifşa etməklə yanaşı, həm də dünyaya həqiqi Xocalı platformasını təqdim etdi. Ölkəmiz dünyanı tam inandırdı ki, Xocalıda adi cinayət yox, məhz etnik düşmənçilik zəminində dinc insanlara qarşı soyqırım törədilib və bu faciə məhz ermənilər tərəfindən həyata keçirilib".

A.Quliyev vurğulayıb ki, 2008-ci ildə başladılan "Xocalıya ədalət" kampaniyası erməni strategiyasının darmadağın edilməsinin həlledici mərhələsini açdı: "Bu gün 10-dan çox ölkənin parlamenti və ABŞ-ın 20-dən çox ştatı tərəfindən Xocalının soyqırımı hadisəsi kimi tanınması "Xocalıya ədalət" kampaniyasının tarixi əhəmiyyətli nəticələridir. Nəzərə almaq lazımdır ki, Xocalı hadisəsinin soyqırım faktı kimi tanınması Ermənistanın dünyada saxta erməni genosidini tanıtma prosesini sürətlə apardığı vaxtda baş verir. Bu, o deməkdir ki, Azərbaycan Xocalını soyqırım faktı kimi tanıtmaqla həm erməni şovinizminin və separatizminin cinayətkar nahiyyətini ifşa edir, həm də ermənilərin öz saxta genosidlərini tanıtdırmaq siyasətinə zərbə vurur".

Baş redaktor əlavə edib ki, Xocalının soyqırım faktı kimi baynəlxalq tanınma qərarlarından sonra ermənilərin dünyanı öz saxta "genosidlərinə" inandırmaq cəhdləri xeyli zəifləyib: "Bu gün dünyanın əlində ermənilərin uydurma genosid platforması ilə azərbaycanlıların məruz qaldığı həqiqi soyqırım cinayətini müqayisə etmək və real nəticəyə gəlmək imkanı var. Dünyaya belə real seçim imkanı vermək Azərbaycan diplomatiyasının tarixi uğurudur".

***Nailə Məhərrəmova***

# Korporativ sektorda PR fəaliyyətin əhəmiyyəti və rolu

*İctimaiyyətlə əlaqələr (Public Relations) və bu əlaqələrin sistemli şəkildə qurulması, istər dövlət, istərsə də korporativ sektorda (özəl sektor) çalışan qurumlar üçün vacib məsələlərdəndir. Bəşəriyyətin hazırda dördüncü sənaye inqilabı və rəqəmsal transformasiya periodunda olması, dəyişikliklərin sürətinin hər ötən gün artması, yeni çağırışların yaranması fonunda PR fəaliyyət hər bir təşkilat üçün strateji əhəmiyyət kəsb edir.*

PR və bu sahə ilə məşğul olan şəxslərin fəaliyyətinin mahiyyətini müəyyən edən ümumiyyətlə 500-dən çox yanaşma mövcuddur. Ümumi yanaşma bundan ibarətdir ki, PR fəaliyyətlə məğul olan insanlar cəmiyyəti, biznesi inandıran insanlardırlar. Yəni onlar təşkilat daxilində və xaricində biznesin, məhsulun uğurlu olduğu ideyasını, onun üstünlüklərini təbliğ edir, müxtəlif hədəf qruplarını, ümumilikdə isə, cəmiyyəti inandırır və öz mövqelərinizi gücləndirirlər. Amerika İctimaiyyətlə Əlaqələr Cəmiyyəti PR-a belə bir tərif verib: İctimaiyyətlə əlaqələr təşkilat və cəmiyyət arasında qarşılıqlı faydalı münasibətlərin qurulmasına istiqamətlənən strateji kommunikasiya prosesidir.

Korporativ sektorda fəaliyyət göstərən müxtəlif bizneslərin formalaşması, inkişafında PR-ın rolu çox vacibdir. Çünki hər bir biznesin ən başlıcası pozitiv imicə sahib olmalıdır, cəmiyyət, hədəf auditoriyası, çalışdığı sektordakı qurumlar onu tanımalıdır. PR fəaliyyətin də elə başlıca istiqaməti müsbət imicin qurulması, saxlanılması, daha da inkişafı, kommunikasiyanın dərinləşməsi, mümkün böhran vəziyyətlərinin qarşısının alınması və idarə edilməsidir.

Biznes strukturun ictimaiyyətlə əlaqələrinin uğurlu şəkildə təşkili, müsbət imicinin formalaşması üçün PR strategiya formalaşdırılmalı, bu strategiya biznes strukturun fəaliyyətindən irəli gəlməlidir. Bu PR strategiya əsasında isə Yol Xəritəsi çəkilməlidir, ki, hansı addımlar hansı zamanda və ardıcıllıqla atılacaq. Burada PR mütəxəssis biznes strukturun daxilində digər şöbələrlə, rəhbərliklə, satış, marketinq, hüquq departamenti, texniki departament və digərləri ilə sıx əlaqəli və koordinasiya olumuş şəkildə çalışmalı, bu iş komanda işi olmalıdır.

Öz müsbət imicini qurmaq, onu daha da inkişaf etdirmək, ictimaiyyətlə əlaqələri formalaşdırmaq istəyən hər bir biznes strukuruna PR üzrə mütəxəssisin dəstəyi vacibdir və şirkətin bütün inkişaf mərhələlərində PR fəaliyyət ayrılmaz hissə olmalıdır. Xüsusilə, ölkə daxili ilə yanaşı xaricdə də müxtəlif iri layihələr icra edən biznes qurumları öz imiclərinə diqqət yetirməli, həssaslıqla yanaşmalı və peşəkar PR fəaliyyət aparmalıdırlar. Çünki xarici tərəfdaşlar, xüsusilə maliyyə institutları elə ən birinci imic məsələsinə diqqət göstərirlər.



### PR fəaliyyət təkcə media ilə kommunikasiyadan ibarət deyil

Dördüncü sənaye inqilabı dövründə bizneslər də dəyişikliyə məruz qalır. Bir sıra ənənəvi bizneslər sıradan çıxır, biznes rəqəmsal platformaya keçir. Belə bir dövrdə PR sahəsində də yeni alətlərin tətbiqi, yeni yanaşmalara ehtiyac var.

Hazırda PR fəaliyyətdə çoxkanallı kommunikasiyadan istifadə olunur, fərqli rəqəmsal alətlər daha çox önə çıxır, ənənəvi kommunikasiya metodlarının tətbiqi azalır. Amma onu da qeyd etmək lazımdır ki, güclü düşünmə qabiliyyəti olan, dərin təhlilə meylli cəmiyyətlərdə ənənəvi kommunikasiya - ənənəvi media hələ də güclü təsir imkanlarını saxlayır və PR fəaliyyətdə əsas alətlərdən biridir. Bu mənada ənənəvi media ilə iş hər zaman aktual qalmalıdır.

Lakin PR fəaliyyətdə təkcə media ilə iş kifayət etmir. Media ilə iş, jurnalistlərlə görüşlər, xüsusilə də press-relizlərin yazılması və yayılması sadəcə bir istiqamətdir. Çünki press-relizlərin mediada verilməsi hələ imic qurmaq demək deyildir.

Biznesin cəmiyyətə töhfə verdiyini göstərmək üçün korporativ sosial məsuliyyət istiqamətinə xüsusi diqqət göstərilməlidir. Hər bir biznesin cəmiyyət qarşısında bir sosial məsuliyyəti də olmalıdır.

Cəmiyyətdə rəy yaradan şəxslərlə - influencerlərlə də iş vacibdir. Bu müsbət imicin formalaşmasına təsir göstərir. Bir qayda olaraq insanlar ekspertlərə, cəmiyyətdə rəy sahiblərinə daha çox etibar edir və onların fikirlərini dinləyirlər. Həmçinin də, biznes barədə uğur hekayələrinin olması, fokus qrupları ilə görüşlərin keçirilməsi, müxtəlif biznes platformalarda təmsil olunma, mətbuat konfransları, brifinqlərin təşkili də vacib məsələlər sırasındadır.

Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, PR fəaliyyətin əsasında heç də maliyyə vəsaiti hesabına kommunikasiyanın qurulması, imicin formalaşması faktoru dayanmamalıdır. PR komanda inandırama metodlarından istifadə etməklə, biznesin fərdlərə, cəmiyyətə və dövlətə verdiyi real əhəmiyyəti, dəyəri qabartmaqla imici qurmalı və kommunikasiya strategiyasını aparmalıdır.

### Kommunikasiya strategiyası insan faktoru üzərində qurulmalıdır

PR fəaliyyətin məhsul və brend üzərində qurulması yanaşması artıq inkişaf etmiş Qərb cəmiyyətlərində istifadə olunmur. İndi PR strategiya, imicmeykinq, kommunikasiya biznesin insana verəcəyi töhfənin göstərilməsi üzərində formalaşır. Yəni insan, fərd bu məhsuldan, xidmətdən nə kimi fayda alacaq. Müasir reklam, satışlar da buna yönəlib. Yəni əvvəl PR strategiya məhsulun tanıdılması, ona etimadın formalaşması üzərində qurulurdu, daha sonra məhsul deyil, brendin tanıdılması istiqamətində iş aparıldı və beləliklə uğurlu brendlər formalaşdı. İndi isə imicin formalaşması üçün, böyük korporasiyaların kommunikasiya strategiyası insan faktorunun qabardılması, insana veriləcək dəyərin, töhfənin irəli çəkilməsi üzərində aparılır. Yəni, insan kommunikasiya strategiyasında mərkəzdədir. Amerikalı biznes yazıçı Cey Konrad Levinson bildirirdi ki, əgər siz onlarla (hədəf auditoriyası) onların özləri haqqında danışa bilsəz, siz onların bütün diqqətini əldə edəcəksiniz.

Hazırda bu yanaşma Qərb cəmiyyətlərində fəaliyyət göstərən iri korporasiyaların (Nike, Apple, BMW, Turk Telecom, Verizon, L'Oreal və.s) kommunikasiya strategiyasında əsas yanaşmadır.

### Azərbaycanda PR sahəsinə diqqət artır

PR sahəsi Azərbaycanda həm dövlət, həm də korporativ sektorda inkişafdadır və hər ötən il bu sahəyə olan maraq artır. Böyük qurumlar peşəkarlarla çalışmaq, uğurlu PR kampaniyalar aparmaq istəyirlər. Lakin ölkəmizdə ümumilikdə PR sahəsində bir sıra çatışmazlıqlar var. Bu çatışmazlıqlar sırasında zəif təşkilatlanma, maraqlı tərəflərin işirakı ilə müzakirələrin az aparılması, tədbirlər, forumların çox nadir hallarda keçirilməsini göstərmək olar. Satış və marketiq sahələrində hər il çoxsaylı tədbirlər keçirilir. PR sahədə isə bu nəzərə çarpmır. 2016-cı ildə ictimaiyyətlə əlaqələr mütəxəssislərini bir araya toplayan "Azərbaycan İctimaiyyətlə Əlaqələr Mütəxəssisləri Assosiasiyası"nın yaranması bu boşluğu müəyyən qədər doldurub. Ötən il Türkdilli dövlətlərin PR mütəxəssislərinin Birinci Bakı Forumu baş tutub və bu tədbir bu sahədə bir ilk olub.

### Ümumilikdə, korporativ sektorda çalışan qurumlar uğurlu PR fəaliyyətə sahib olmaq üçün bir neçə məqama diqqət yetirməlidirlər

Biznes qurumlar nəzərə almalıdırlar ki, məhsulun, brendin tanınması, müsbət imicin formalaşması uzun bir prosesdir. PR mütəxəssis bir neçə aya hər şeyi, bütün problemləri həll edə bilməz və 1-2 aya biznes strukturun öz hədəflərinə çatması inandırıcı deyil. Qarşılıqlı kommunikasiyanın qurulması, pozitiv imicin, etimad mühitinin formalaşması uzun prosesdir, burada kompleks işlər görülməlidir və səbrli olmaq lazımdır;

Biznes qurumun rəhbəri ilə PR mütəxəssis arasında bir etimad mühiti olmalıdır. Yəni siz peşəkarı işə cəlb etmisiz, ona fəaliyyət-yaradıcılıq azadlığı verməlisiniz, çünki PR yaradıcı bir işdir. Onun məsləhətlərinə qulaq asmaq lazımdır. Stiv Cobs deyirdi ki, biz savadlı insanları ona görə işə cəlb edirik ki, onlar bizə nə etmək lazım olduğunu desinlər. Ona görə cəlb etmirik ki, biz onlara nə etməyin lazım olduğunu deyək. Yəni, PR mütəxəssislə qurumun rəhbərliyi arasında bir inam, etimad və xüsusilə də birbaşa təmas - əlaqə olmalıdır;

·Ölkəmizdə bir çox biznes strukturlarında PR mütəxəssislər çox tez-tez dəyişilir. Onlar ya özləri gedirlər, yeni onların gözləntləri doğrulmur, ya da rəhbər bir müddətdən sonra yeni mütəxəssisin tapılmasını istəyir. Bu da ondan irəli gəlir ki, biznes qurumunun rəhbərliyi səbrsiz davranır, düzgün PR metodların tətbiqinə mane olur və nəticədə iş də ləngiyir və yeni şəxsin tapılması, onun əvvəlki prosesləri öyrənməsi, təhlil aparması də zaman alır. Belə situasiyalar heç də biznesin xeyrinə olmur.

Bir sıra hallarda biznes strukturlar PR işinin təşkili üçün PR mütəxəssis axtarır və ya PR agentliklə çalışır, amma konkret olaraq nə istəyirlər onu bilmirlər. Soruşanda isə qeyd olunur ki, biz məlumatların mediada dərcini istəyirik. Amma nəyi kommunikasiya etmək, hansı mesaj verilməlidir sualına cavab verilmir. Mediada məlumatların dərci sözsüz ki, vacibdir, amma bu PR fəaliyyətdə sadəcə bir alətdir. Bu cür situasiyadan çıxmaq üçün isə biznesin mövcud durumu ilə bağlı dərin təhlillər, rəhbər şəxslərin hər biri ilə fərdi söhbətlər aparılmalı, şirkətin ümumi strategiyasından irəli gələn PR stratregiya hazırlanmalı və kompleks işlər görülməlidir.

Vacib məqamlardan biridə ölkəmizdə hələ də PR sahəsinin müstəqil bir ixtisas sahəsi kimi tədris olunmamasıdır. Məhz bu səbəbdən, PR sahəsində ixtisasa sahib olmaq üçün hazırda gənclər xaricdə universitetlədə bu sahəni öyrənirlər. Bu mənada gələcəkdə PR ixtisasının ölkəmizdə də tədris edilməsi də məqsədəuyğun olardı.

**Əlimərdan Sultanov**

## Borclu şəxs qismində axtarılan 27 nəfər saxlanılıb



Ötən gün törədilmiş 25 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 16 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 42 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarılan 27 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında baş vermiş iki ağır yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb, altı nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 16 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 35 nəfər saxlanılıb.

# Tarixə söykənən düşmənçilik...

## *Yaxud AXCP-Müsavat xəyanət burulğanında çabalayan anti-xalq partiyaları*

***Bu gün artıq kifayət qədər faktlar mövcuddur ki, özlərini müxalifət partiyaları adlandıran AXCP və Müsavat adlı siyasi təşkilatlar heç vaxt bir-birlərini həzm edə bilməyiblər. Məhz bu həzmetməzliklər, qəbuledilməzliklər sindromu, xüsusilə, başa çatan növbəti parlament seçkiləri ərəfəsi daha açıq şəkildə özünü göstərdi. Hətta hər iki partiya, demək olar ki, son dövrlərini yaşamalarına rəğmən, bir-birlərini hakimiyyətə işləməkdə və iqtidarla əlbir olmaqda suçlayaraq bir əsas reallığı unudurlar - hər iki partiyaların "liderləri" anti-xalqçılıqla məşğuldurlar.***



Daha dəqiq desək, yarandıqları dövrlərdən bu günə kimi, anti-dövlətçilik maraqlarına kökləniblər. Belə ki, ölkədə baş verən istənilən uğur, nailiyyətlər, hər hansı beynəlxalq tədbirlər, xüsusilə də, seçkiərəfəsi ölkədə qarşıdurma, siyasi vəziyyəti gərginləşdirmək istəsələr də yenə də çanaq öz başlarında sınır. Bu qarşıdurmaların təməlində dayanan daha bir amil isə, Müsavatın ictimai-siyasi olaya qatılması, AXCP-nin isə, həmin olaydan kənarda qalmaq "taktikasına" üstünlük verməsidir. Seçki başlamazdan xeyli öncə Əli Kərimli Arif Hacılıya deyir ki, biz seçkiləri "boykot" etmişiksə, siz niyə seçkilərə qatılmaq qərarını vermisiniz..?

Əlbəttə, hansı siyasi cinahda təmsilçiliyindən asılı olmayaraq, seçkilərə qatılıb, fəallıq göstərmək müsbət məsələdir. Misal üçün, əgər Ə.Kərimli AXCP sədri və "Milli Şura"nın dirijoru olaraq "boykot" qərarını versə də, həmin qərarın nəyə əsaslandırıldığını hələ də müfəssəl şəkildə açıqlamağı bacarmayıb. Sadəcə, məqsəd budur ki, dövlətin mənafeyinə qarşı əks-addım atılsın, vəssəlam! Ancaq o da bəllidir ki, müsavatçılar həmişə Ə.Kərimlinin əksinə gedib. Yəni vaxtilə onlar da cəbhəçilərin qatıldıqları seçkilərdən imtina edib, ancaq həmin imtinalarını əsaslandırmağı bacarmayıblar. Bütün bunların kökündə isə dayanan daha bir faktor bu partiyaların təmsilçilərinin özlərinə inamlarının olmamasıdır.

### Əslində, bu, təəccüb də doğurmur...

Bu partiyalar zaman-zaman çoxsaylı birlik və koalisiyalarda da qısamüddətli təmsil olunublar, lakin həmin təmsilçiliklər də, sözün əsl mənasında, şillə-təpik, yumruq-kəllə münaqişələri ilə başa çatdırılıb. Hətta bir zamanlar "nəhəng partiya" adı altında AXCP və Müsavat partiyalarının birləşmək ideyası da önə sürülmüşdü. Müsavat partiyasının sabiq başqanı İ.Qəmbərin Ə.Kərimli ilə anlaşması isə, əlbəttə ki, yarı yolda qaldı. Yəni bu da baş tutmadı və tərəflər yenidən barışmaz düşmənlərə çevrildilər. Əslində, belə də gözlənilirdi və əlbəttə ki, həmin vaxt verilən proqnozlar özünü kifayət qədər doğrultdu.

Beləliklə, növbəti parlament seçkiləri də hər iki partiyaların dərin uçuruma getməsini daha da tezləşdirir. Daha doğrusu, müsavatçıların xalq arasındakı mənfi rəyləri onların bəri başdan uduzacaqları anonsunu verir. Artıq bu, baş verib. İndi də uduzduqdan sonra AXCP sədri Ə.Kərimli müsavatçıların başqanı A.Hacılıya əzbərlədiyi sözləri yenə də təkrar etməkdədir: "Gördün? Gərək sən də mənim kimi seçkiləri "boykot" edərdin" və s. Ancaq bu faktı hələ də anlaya bilmirlər ki, daha etiraf olunmayacaq ki, cəbhəçilərlə müsavatçılar seçkilərə qatılsalar nə olacaq, qatılmasalar nə olacaq?..

9 fevral parlament seçkilərindən sonra baş verənlər də sübut edir ki, bu lokomotivlər onlara inananları elə yerlərə aparıblar ki, indi vaxtilə müsavatçı, yaxud cəbhəçi olanlar ciddi satsıntı keçirirlər.

Politoloq Zərdüşt Əlizadə bildirib ki, Azərbaycanda siyasi sistemin böhran içərisində olması müxalifətə daha çox sirayət edir: "Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər nə vaxtdan vicdanlı, təmiz olublar ki, düzgün rəqabət də aparsınlar. Bunu hər iki partiya sədrlərinin, həmçinin, sabiq başqan İsa Qəmbərin simasında da görmək olar"- deyən Zərdüşt Əlizadə qeyd edib ki, siyasi mühitdəki mübarizə üsulları intriqa və qohumbazlığa söykənir.

Onun sözlərinə görə, müxalifətdə tanışlıq məsələlərinə çox böyük önəm verilir: "Təəssüf ki, müxalifət daxilində yaranmış böhran müxalifət adlı siyasi qurumlara yaxşı heç nə vəd etməyib, bundan sonra da seçkilərdə seçici axtarışında olacaqlar".

### Hafiz Hacıyev: "Müsavat Partiyası ilə AXCP hər zaman daxilən bir-biri ilə mübarizə aparıblar"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev qəzetimizə verdiyi açıqlamasında bildirib ki, onları ideya birləşdirmir: "Hər iki qurumun bu cür apardıqları mübarizə Qərbin kapitalı və bu kapitalı kimin necə əldə etməsi uğrundadır. Məsələn, "Milli Şura" mitinqlərlə bağlı qərar verir amma Müsavat tamam başqa fikirlər səsləndirir. Keçən dəfə İsa Qəmbər öz açıqlamasında mandat uğrunda deyil, əksinə böyük amallar uğrunda mübarizə apardıqlarını söylədi. Bu şəxsin özünə sual vermək lazımdır ki, bəs sənin ətrafında kimlərsə varmı? Yəni onların bir yerdə olması heç vaxt mümkün deyil. Bu, o zaman mümkün ola bilər ki, onların ağaları bir olsun. Bu gün Müsavatın bir qolu Avropada müəyyən ermənipərəst dairələr tərəfindən idarə olunur. Eləcə də "Milli Şura" müxtəlif qütblərə işləyən bir qurumdur. Bir sözlə, bu pərakəndəlik onları hər zaman məhv edib. Nə vaxt İranla Avropa dövlətləri arasında müəyyən razılaşma olacaqsa, Kərimov Əli ilə Qəmbərov İsa arasında da razılaşma olacaq. Bu gün onların apardıqları siyasət çox uğursuz bir siyasətdir. Buna baxmayaraq müəyyən qüvvələr çalışır ki, onları diriltsinlər. Məqsəd isə Azərbaycanda qarşıdurma yaratmaqdır".

***Rəfiqə HÜSEYNOVA***



## *Seçkidən sirk düzəldən klonlar*

**RƏFİQƏ**

***Hər dəfə eyni şeyləri təkrarlayan və mitinq keçirməyi çıxış yolu hesab edən dağıdıcı müxalifət bu dəfə də seçkidən sirk düzəldərək, gözəl şəhərimizi çirkaba bulayaraq klonluq etməklə nəyəsə nail olacaqlarını zənn edirlər. Gəlin, Eynşteynin bu fikrini radikalların mitinq cəhdinə tətbiq etməyə çalışaq. Aydın məsələdir ki, heç bir şərt dəyişməyibsə, eyni cəhdi bir dəfə də təkrarlamaqla, keçən dəfəkindən fərqli nəticə almaq mümkün olmayacaq. Elə isə, satqınlar sülaləsinin fəalları olan Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Xədicə İsmayıl və... bunu niyə edirlər? Dahi Eynşteynin dediyi kimi, axmaqlığından.***

Çünki Kərimliyə lazım olan icazəsiz mitinqə cəhd edilsin, ölkənin daxilində hökuməti və polisi, xaricində isə dövləti pisləmək arzusunda olanlara bəhanələr verilsin! Beləliklə, seçkidən sirk düzəldən Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, X.İsmayıl, C.Həsənli, G.Hacıbəyli və... bu kimi kulonlar mitinq cəhdi Azərbaycan dövlətinin rəhbərinin uğurlu nailiyyətlərindən qaşınmaya düşərək ölkədə guya demokratiyanın pozulduğunu iddia edirlər. Bax, əxlaqsızlıq, mənəviyyatsızlıq budur. Mütləq kimsə bir təxribat törədəcək, asayiş keşikçilərinin məcburi sərt reaksiyası isə müxtəlif rakurslardan çəkilib, "Bakıda polis vəhşiliyi" adı altında dünyada tirajlanacaq, çünki nə olursa-olsun, sifariş yerinə yetirilməlidir. Bax, budur onların simaları! Radikal müxalifət "liderləri" isə həyasızlıq nümayiş etdirərək hay-həşir salırlar ki, "saxta seçkilərə qarşı" şüarı ilə mitinq çağırışı edirlər. Burada aydın görünür ki, seçkilərdə kiçik uğur qazanmaq iqtidarında belə olmayan radikallar ləyaqətlə uduzmağı, məğlubiyyətlərini etiraf etməyi də bacarmırlar. Mahiyyət etibarı ilə, radikalların bu seçkidə uduzacaqları, böyük uğursuzluğa düçar olacaqları irəlicədən bəlli idi. Çünki radikalların köhnəlmiş, qeyri-real iddiaları, cəfəng şüarları Azərbaycan seçiciləri üçün, sadəcə olaraq, mənasız və maraqsızdır. Söhbət ondan gedir ki, nə iddialı namizəd, nə də bu və ya digər siyasi qurumun təmsilçisi kimi onlar elektorat üçün cəlbedici deyillər. Belə olan halda, məğlubların özlərini "qalib" kimi sırımağa cəhd etmələri, ən yaxşı halda, gülüş doğurur. Onların belə acınacaqlı və miskin vəziyyəti, yumşaq şəkildə deyilsə, siyasi cığallıqdan başqa bir şey deyil.

Reallıq isə ondan ibarətdir ki, xalq bu seçkidə dağıdıcı müxalifətə eyni cavabı verdi - "yox!" deyib dağıdıcı təfəkkürlü, siyasi-əxlaqi cəhətdən naqis insanları parlamentdə görmək istəmədiyini bildirdi. Budur, ölkənin müxalifəti. Belələrinin, təbii olaraq, xalq arasında heç bir dayağı və dəstəyi yoxdur. Seçkidən sirk düzəldən müxalifətin kulonları bundan sonra hansı oyundan çıxırsınızsa, çıxın sonu yoxdur. Necə deyərlər, sirkə nə qədər tünd olsa, öz qabını çatladar.

# Xəstəxanalarda ödənişlər kart vasitəsilə aparılacaq

***İcbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisələrində ödənişləri nağdsız qaydada həyata keçirmək məqsədi ilə "Azərbaycan Beynəlxalq Bankı" İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə birgə bank kartları buraxıb.***

Agentlikdən SİA-ya verilən məlumata görə, bu kartlar vasitəsilə tibb müəssisələrində müştərək maliyyələşmə məbləğini, Xidmətlər Zərfinə daxil olmayan tibbi xidmətlərin tarifini və s. bu kimi ödənişləri nağdsız qaydada həyata keçirmək mümkündür.

Hər hansısa bank kartına sahib olmayan şəxslər kartı "Azərbaycan Beynəlxalq Bankı"nın icbari tibbi sığorta tətbiq edilən ərazilərdəki filial və şöbələrindən şəxsiyyət vəsiqələrini təqdim etməklə pulsuz ala bilərlər. "Nağdsız hesablaşmalar haqqında" qanunun tələbinə uyğun olaraq publik hüquqi şəxs statuslu tibb müəssisələrində nağdsız ödənişlərin aparılması üçün "Azərbaycan Beynəlxalq Bankı" müvafiq layihə çərçivəsində onları lazımi sayda POS-terminal və ödəmə terminalları ilə təchiz edib. Vətəndaşlar tibb müəssisələrindəki ödəmə terminalı vasitəsilə sözügedən karta vəsait yerləşdirdikdən sonra ödənişlər POS-terminalla aparılır. Həmçinin "Azərbaycan Beynəlxalq Bankı"nın filial və şöbələrində, "Cash in" tipli bankomatlarında, E-manat və Azericard ödəmə terminalları və "Card to card" vasitəsilə də bu karta vəsait mədaxil etmək mümkündür. Bank kartı əhaliyə gələcəkdə tibb sahəsində digər xüsusi imtiyazlardan, əlavə güzəştlərdən faydalanmaq imkanı da yaradacaq.



# MƏCBURİ ƏMƏK İNSAN HÜQUQLARININ POZULMASI KİMİ

***Məcburi əməyin, eləcə də insan alverinin cari formaları çox zaman cinayət kimi nəzərə alınır və əmək müfəttişlərinin daxil ola bilmədikləri bir sahə kimi təqdim olunur. Bu yazıda məcburi əməyin əmək müfəttişlərinə necə aidiyyatı olduğunu, bu halların necə müəyyən edilə biləcəyi və ona qarşı mübarizə vasitələrini izah edir. Əmək müfəttişlərinin məcburi əmək və insan alverinə qarşı beynəlxalq mübarizədə rolunun bir çox səbəbləri vardır:***

Cari məcburi əmək formaları iqtisadiyyatın bir çox sektorlarına mürəkkəb paylama zəncirləri və insanların iş axtarmaq məqsədilə sərhədləri qeyri-qanuni keçməsi vasitəsilə daxil olmuşdur.

Məcburi əmək və insan alveri həm insan haqqlarının həm də, işçilərin hüquqlarının pozulması deməkdir. Məcburi əmək layiqli əməyin anti-tezisidir və məcburi əməkdən azad olmaq dörd fundamental əmək azadlıqlarından biridir və əmək müfəttişləri bu haqqları təbliğ etməli və qorumalıdırlar. Məcburi əmək və insan alveri ciddi gəlir gətirən bir sahədir və çox zaman qeyri-qanuni fəaliyyətlər olan vergi gizlədilməsi və sosial müdafiə ödənişlərinin saxtalaşdırılması kimi hallarla əlaqələndirilir. Sağlamlıq və təhlükəsizliyə eləcə də, qeyri-qanuni işəgötürməyə dair müntəzəm yoxlamalar mümkün məcburi əmək hallarının işarələrinin ortalığa çıxara bilər. Əmək müfəttişləri və digər nəzarət qurumları bu cür halların ortalığa çıxarılmasında mühüm rol oynaya bilər. Əmək müfəttişləri axtarış barədə qərar olmadan iş yerlərinə girib yoxlama apara bilərlər. Bundan əlavə onların istifadəsində digər vasitələr də vardır. Bu hal onları hüquq mühafizə orqanları üçün vacib tərəfdaşa çevirir. Əmək müfəttişlərinin məcburi əməyin qarşısının alınması və zərər çəkənlərin qorunmasında potensial rolu vardır. Beləliklə, onlar hökumət qurumlarının, işəgötürən və işçi təşkilatlarının və QHT-lərin məcburi əmək və insan alveri məsələlərində vacib tərəfdaşlarıdırlar. Roger Plant demişdir: "Bütün dünyada insan alveri məsələsini həll etmək məqsədilə polis, sərhəd nəzarətçiləri və digər hüquq mühafizə agentliklərinin təlimləndirilməsi üçün ciddi investisiyalar qoyulmuşdur. Amma məcburi əmək və insan alverinin aradan qaldırılması və qarşısının alınmasında əmək müfəttişlərinin çox vacib rolu indiyə kimi yaddan çıxmışdır. Bu məsələlər ciddi kriminal cinayətlər olduğundan ölkələr və digər iştirakçılar hesab etmişlər ki, məcburi əmək və insan alveri əmək qanunları, onların icrası və ədalət yolu ilə deyil, ən yaxşı halda cinayət qanunları və qaydalarının tətbiqi ilə aradan qaldırıla bilər. Halbuki bəzi ölkələrdə olduğu kimi, əmək müfəttişlikləri bu problemləri nəzarətə götürməli və öz rolların nəzərə alaraq təklikdə və yaxud digər hüquq mühafizə orqanları ilə birgə onları həll etməlidirlər. Birinci, əmək müfəttişləri ilkin xəbərdarlıq etmək üçün yaxşı silahlanıblar. Özəl iqtisadiyyatda əmək haqqı ödənilməsi, əmək haqqından ədalətsiz tutmalar, saxta müqavilələr, istismaredici işəgötürmə və digər oxşar praktikalar vəziyyətin məcburi əməyə çevrilməsi barədə ilkin işarələrin göstəricilərdir. İkinci, polis və prokurorlarla müqayisədə əmək müfəttişlərinin iş yerlərinə girişi daha asandır, onlar ilkin araşdırma apara və məlumat toplaya bilərlər və bunların əsasında sonradan cinayət işi qaldırıla bilər. Üçüncü, onların hüquq mühafizə orqanları ilə müqayisədə daha çox barışdırıcı rolu olduğundan onların məcburi əmək riski olan vəziyyətlərdə qarşılayıcı və məlumat artırıcı kimi daha vacib funksiyaları ola bilər."

Məcburi əməkdən yaxa qurtarmaq üçün bir çox sahədə tədbirlərin görülməsi tələb olunur. Burada məcburi əməyin fərqli kontekstlərdə necə hərəkət etdiyini, kimləri hədəf alıb təsir etdiyini və bu təsiri necə göstərdiyini aydın şəkildə anlamaq lazımdır. Bu, ölkələrdən məcburi əməyin fərqli formalarını qeyriqanuni elan edən, məcburi əmək qurbanlarını müdafiə edib, təqsirkarları isə lazımınca cəzalandırmağa icazə verən güclü qanunlar və siyasət qəbul edib onu icra etməyi tələb edir. Burada ölkə kontekstinə və məcburi əmək problemlərinin növlərinə uyğunlaşdırılmış bir sıra, məcburi əmək riski barədə ictimaiyyətin xəbəri olmasını yüksəltmək,gələcək qeyri-qanuni miqrantları alternativ yerli gəlir imkanları və bacarıqları ilə təmin etmək, əməkçilərin öz hüquqları, sərt qanunların həyata keçirilməsi barədə təhsilini artırmaq, insanları işə cəlb etmə ilə məşğul olan agentliklər, əmək müqaviləsi bağlayanlar və işəgötürənlərin fəaliyyətini yoxlamaq və tənzimləmək, və qurtulmuş məcburi əmək qurbanlarının reabilitasiyası və normal axına girməsini təmin etmək kimi praktiki tədbirlərin görülməsinə ehtiyac var. Məcburi əməyin qarşısının alınması məsələsində uzun müddətli missiyanın hədəfi isə gəlirqazanma fəaliyyətləri və mikro-sığorta proqramlarının yaradılması, bütün əməkçilərin kollektiv danışıqların təşkil olunması və aparılması hüquqları ilə təmin edilməsi kimi yoxsulluğun azaldılmasına yönəlmiş təşəbbüslərdir. Məcburi əmək və insan alverinə qarşı mübarizədə biznes və işəgötürənlər aparıcı rol oynayırlar. Əslində, bu məsələyə dair biznes rəhbərləri tərəfindən artıq mühüm addımlar atılıb. Lakin, biznesin rolu digər vacib nümayəndələrin, yəni dövlətlər və sosial tərəfdaşların rolundan kənarda baxılsa gözə görünməz qalacaq. Əmin olun ki, bütün əməkçilərin, asanlıqla başa düşəcəkləri dildə yazılmış, əmək haqqı, əlavə iş vaxtı, şəxsiyyəti bildirən 38 sənədlərin saxlanılması və məcburi əməyin qarşısının alınması ilə bağlı digər məsələlərə aid hüquqlarını müəyyənləşdirən yazılı müqaviləsi var: - Potensial problem sahələrini müəyyən edib yaxşı təcrübə ilə bölüşərək biznes nümayəndələri arasında milli və beynəlxalq hadisələri qeyd etməyə həvəsləndirin.

-- Məcburi əmək və insan alveri qurbanlarına yardım etmək məqsədini daşıyan proqram və layihələrə peşə treninqləri və digər lazımi tədbirlər keçirməklə öz dəstəyinizi göstərin. · Məcburi əmək və insan alverinə qarşı fəaliyyətdə əməkdaşlığı irəli çəkərək dövlətlər, əməkçilər, qanun icraatı agentlikləri və əmək müfəttişlikləri arasında körpü çəkin. ·

- Yaxşı təcrübəni mükafatlandırmaq üçün KİV ilə əlaqədə olaraq innovativ (yeni) vasitələr tapın. 3. Öz şirkətimin əməliyyatlarında məcburi əməyi necə aşkara çıxara bilərəm? Nəzərə alınmalı bəzi əlamətlər aşağıdakılardır: · Borc içində olan əməkçilər. Borc içində olan və ya borca girmək ehtimalı olan əməkçilər borclarını ödəməkdən ötrü müəyyən bir işəgötürənə işləmək üçün məcbur edilmiş ola bilər; · Həbsxana əməyi. Həbsxana əməyinin istifadəsi məcburi əmək sayılmır. Lakin, həbsxanada cəza çəkən məhkum əməkçilər yalnız könüllülük əsasında şirkətlər tərəfindən işə götürülməli və burada əmək haqqı, müavinət və əmək təhlükəsizliyi və sağlamlıq məsələlərinə dair şərtlər də azadlıqda olan əməkçilərə şamil olunan şərtlərlə müqayisə oluna bilən olmalıdır;

-- Fəaliyyət göstərdiyiniz ölkədəki hakimiyyət inkişaf naminə, misal üçün inşaat, kənd təsərrüfatı və digər sahələrdə əhalini işləməyə məcbur edir.

-- Xüsusilə də miqrant əməkçilər məcburi əmək şəraitində işləməyə məruz qalan qrup sayılır;

-- Müqaviləsiz işləyən əməkçilər, böyük ehtimalla demək olar ki, onlar öz hüquqlarını (buraya, öz məşğulluqlarını tərk etmək hüququnu da daxil etməklə) bilmirlər;

- Potensial məcburi əmək vəziyyətlərini aşkara çıxaran praktiki yoxlama siyahısı da işəgötürənlər və biznes üçün faydalı vasitə kimi xidmət edə bilər. Azərbaycanda qanunvericiliyə görə, heç kəs zorla işlədilə, əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Hər hansı qayda və üsulla zor işlətməklə, həmçinin əmək müqaviləsinə xitam veriləcəyi hədə-qorxusu ilə işçinin onun əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur olunması qanunla qadağandır: "İşçini məcburi əməyə cəlb edən təqsirkar şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilirlər". "Məşğulluğun bu növü əmək qanunvericiliyinin, işçilərin sosial-əmək hüquqlarının ciddi şəkildə pozulmasına, vergi, sosial sığorta və digər məcburi ödəmələrin yerinə yetirilməməsinə səbəb olur" . Könüllü fəaliyyət 9 iyun 2009-cu ildə qəbul edilmiş "Könüllü fəaliyyəti haqqında" Qanunla tənzimlənir. Həmin Qanunun 1-ci maddəsinə əsasən, könüllü fəaliyyət - Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyətdir. Qanun könüllü fəaliyyətinə cəlb olunmasını yol verən istiqamələri konkretləşdirib. Bura əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi; insanpərvərliyin və dözümlülüyün təbliği; istehlakçıların hüquqlarının qorunması; hüquqi və mədəni maarifləndirmə; uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı; idmanın inkişafı; xəstəliklər və epidemiyalar barədə məlumatlandırma; sağlam həyat tərzinin təbliği; ətraf mühitin mühafizəsi tarix və mədəniyyət abidələrinin, mədəni və mənəvi irsin qorunması; silahlı münaqişələr, təbii fəlakətlər, sənaye qəzaları, yanğınlar, epidemiyalar, epizootiyalar və digər fövqəladə halların nəticələrinin aradan qaldırılmasına, o cümlədən fövqəladə hallar nəticəsində zərərçəkmiş şəxslərə yardım göstərilməsi; cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığa düçar olan, məişət zorakılığına məruz qalan şəxslərə və çətin həyat şəraitində olan digər şəxslərə (ailələrə) kömək edilməsi;

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri daxildir. Qanunun 4.3 maddəsi könüllünün işçi çatışmazlığının qarşısını almaq məqsədilə istifadəsini və 4.4. maddəsi Kommersiya hüquqi şəxslərində könüllü fəaliyyətin həyata keçirilməsinə qəti olaraq yol vermir.

Azərbaycan Respublikasının Konstitusiyasına görə, heç kəs zorla işlədilə, əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Qeyd edək ki, bu konstitusion prinsip milli əmək qanunvericiliyində də əksini tapıb. Azərbaycan Respublikasının Əmək Məcəlləsində deyilir: "Hər hansı qayda və üsulla zor işlətməklə, həmçinin əmək müqaviləsinə xitam veriləcəyi hədə-qorxusu ilə işçini əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmək qadağandır. İşçini məcburi əməyə cəlb edən təqsirkar şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilirlər". Bununla belə, Məcəllədə yalnız hərbi və ya fövqəladə vəziyyətlə əlaqədar müvafiq qanunvericilik əsasında, habelə qanuni qüvvəyə minmiş məhkəmə hökmlərinin icrası zamanı müvafiq dövlət orqanlarının nəzarəti altında yerinə yetirilən işlərdə məcburi əməyə yol verildiyi qeyd olunur.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

20 fevral

## Koronavirus İranı da "vurdu"




İranın Qum şəhərində iki nəfər koronavirusa yoluxan şəxs aşkar edilib. AZƏRTAC xəbər verir ki, bu barədə İran Səhiyyə Nazirliyinin mətbuat katibi Keyanuş Cahanpur məlumat verib. O qeyd edib ki, Səhiyyə Nazirliyi Qum şəhərinə xüsusi həkim briqadası göndərib. Virusa yoluxanlar karantinə alınıb və lazımı müalicə proseduruna başlanılıb. Mətbuat katibi Qum şəhərinin əhalisinə müraciət edərək onları diqqətli olmağa və gigiyena qaydalarına əməl etməyə çağırıb.

## "Liverpul" "Atletiko"ya, PSJ "Borussiya"ya uduzub



***Fevralın 18-də futbol üzrə UEFA Çempionlar Liqasının 2019-2020-ci il mövsümünün səkkizdəbir final mərhələsinə start verilib. Belə ki, mərhələnin ilk günündə iki qarşılaşma oynanılıb. Turnirin son çempionu İngiltərənin "Liverpul" klubu səfərdə İspaniyanın "Atletiko" komandasının qonağı olub.***

Görüşün taleyini bir qol həll edib. Matçın 4-cü dəqiqəsində madridlilərin yarımmüdafiəçisi Saul Niquez fərqlənərək komandası üçün vacib qələbə qazandırıb. Günün digər maraq doğuran görüşü Almaniyada baş tutub. Dortmund "Borussiya"sı Fransanın PSJ klubunu qəbul edib.

İlk hissədə azarkeşlər qol görməsə də, fasilədən sonra oyun daha məhsuldar keçib. Qarşılaşmanın 69-cu dəqiqəsində meydan sahibləri Erlinq Hollandın sayəsində hesabı açıb - 1:0. Qoldan altı dəqiqə sonra PSJ -nin əsas qol silahı sayılan braziliyalı Neymar hesaba tarazlıq gətirib - 1:1. Dortmund təmsilçisinin cavabı çox çəkməyib. Oyunun 77-ci dəqiqəsində E.Holland dublu rəsimləşdirib - 2:1. Bu, oyunda son qol olub. Qeyd edək ki, bu komandaların arasında cavab görüşləri martın 12-də keçiriləcək.

## İker Kasilyas futbola "əlvida" dedi...



Portuqaliyanın "Portu" futbol klubunun qapıçısı İker Kasilyas karyerasını bitirib. Bu xəbəri "Portu" klubunun prezidenti Jorje Nunu Pinto Portuqaliya mətbuatına açıqlamasında bildirib. Prezident qeyd edib ki, Kasilyas tezliklə bu barədə açıqlama verəcək və karyerasını bitirdiyini rəsmən elan edəcək. Ötən ilin mayında infarkt keçirən İker Kasilyas həmin vaxtdan yaşıl meydanlara çıxmır. Otuz doqquz yaşlı qolkiper İspaniya Futbol Federasiyasının prezidenti vəzifəsinə namizəddir.

Qeyd edək ki, İ.Kasilyas karyerası ərzində İspaniya millisinin heyətində 167 oyun keçirib. O, bu yığma komanda ilə 2010-cu ildə dünya çempionu, 2008-ci və 2012-ci illərdə isə Avropa çempionu adını qazanıb. İspaniyalı qapıçı "Real Madrid" və "Portu" klublarının şərəfini qoruyub.

## "The Sun": Balotelli 17 yaşlı qıza təcavüz edib!



"Breşiya"nın hücumçusu Mario Balotellinin adı növbəti dəfə qalmaqalla hallanıb.

"The Sun" xəbər verir ki, italiyalı futbolçu Fransanın "Nitsa" klubunda oynayarkən 18 yaşında olduğunu söyləyən italiyalı qızla cinsi əlaqəyə girib.

Balotelli sonradan 17 yaşında olduğu müəyyənləşən qıza 100 min avro ödəyib. Məsələ ilə bağlı polis araşdırmaya başlayıb. Açıqlama verən italiyalı qız 29 yaşlı futbolçunun şiddətinə məruz qaldığını bildirib: "İkimiz də razılaşdıqdan sonra cinsi əlaqədə olduq, amma Balotellinin şiddətli davranışlarına məruz qaldım". İtaliya mətbuatının məlumatına görə, italiyalı qız Balotelli ilə baş verən hadisəni mediaya baha qiymətə geniş açıqlayacaq.

## Orqanizmi təmizləyən məhsullar açıqlandı



Orqanizmi şlak və toksinlərdən təbii vasitələrlə də təmizləmək mümkündür. Qafqazinfo xəbər verir ki, bunun üçün "düzgün" meyvə və tərəvəzdən bol yemək yetərlidir. Diyetoloqların sözlərinə görə, alma orqanizmdən zərərli maddələri tez bir zamanda çıxara bilir. Lakin onları lif və vitaminlərlə zəngin olan qabıqları ilə bərabər yemək lazımdır.

Liflə ağ kələm də zəngindir. Bundan başqa, onun tərkibindəki kükürdü qaraciyər süzgəc kimi istifadə edir. "Detoks-liderlər"in üçlüyünü baş soğan yekunlaşdırır. O, tərkibindəki aminoturşular sayəsində toksinlərlə effektiv mübarizə aparır.

## Messiyə daha bir müştəri çıxdı - Danışıqlar başladı




"Los-Anceles Qelaksi" "Barselona"nın hücumçusu Lionel Messiyə təklif irəli sürüb. Bu baqda MLS-in rəsmi saytı "Radio Continental"a istinadən xəbər yayıb.

Mənbənin məlumatına görə, artıq klubun nümayəndələri futbolçunun agenti olan atası ilə danışıqlara başlayıblar. "Los-Anceles Qelaksi" Messini "Milan"a keçən sabiq oyunçusu Zlatan İbrahimoviçin ulduz əvəzləyicisi olaraq görür. Daha öncə yayılan xəbərə görə, argentinalı futbolçu klub rəhbərliyi ilə aralarında yaranmış gərginlik səbəbindən bu mövsümün sonu "Barselona"nı tərk edə bilər.

## ELAN

**ADPU-nun Kimya biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Əsgərova Təkəzban Rabil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Təbrik edirik!



***Hüseynova Fərqanəni ad günü münasibətilə əzizləri Elnur, Şəmsi xanım, Bahar xanım, Cəfər, Kamalə və Elnarə xanım təbrik edir, ona uzun ömür, can sağlığı arzu edirlər. Qoy həyatda bütün arzuların çin olsun.***

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**